

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Ermənistan və Azərbaycan üçün ilk dəfə olaraq sülh əlçatandır"


4


# SƏS

№ 100 (6783)

8 iyun 2023-cü il.
Qiyməti 60 qəpik


## Böyük Qayıdış: Qarabağ və Şərqi Zəngəzurda müasirləşən yol infrastrukturu!



2

# Dünyanın etiraf etdiyi REALLIQLAR



5

## SOS: Qurunu məhv edən insan okeanı hədəf alıb


7

## Volkan Bozkır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ çiçəklənən diyara çevriləcək"


4

## "Son zəng" yaxınlaşır: Neqativ hallardan necə qorunmalı?


16

## "Mental dəyərlər"ə qurban gedən qızlar


6

## Ay Molla, gəl, gör, bizim dərdimiz nədir?..


14



*Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir.*

# Böyük Qayıdış: Qarabağ və Şərqi Zəngəzurda müasirləşən yol infrastrukturu!

TƏHLİL







Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yollarının yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır.

Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlər bu sıradadır. Başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Hazırda yolun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlətimizin başçısının tapşırığına əsasən, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq, dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir. Layihəyə əsasən, yolun bu hissəsində 5 viadukun, 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlanma işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını ”Zəfər yolu”ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir. Layihəyə əsasən, yolun 6,7 kilometrliyində ”Qarğabazarı” adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.




## HƏR BİR BÖLGƏMİZ YENİ İNKİŞAF MƏRHƏLƏSİNİ YAŞAYIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Füzuliyə səfəri çərçivəsində Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoyulması bu ərazilərdə yol infrastrukturunun tezliklə qurulacağından xəbər verir. Şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub. İlkin mərhələdə 18,5 kilometr yolun tikintisi planlaşdırılır. Birinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 44, ikinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 34, ümumşəhər əhəmiyyətli küçə və yolların eni 24, yerli əhəmiyyətli küçə və yolların eni isə 20 metr olacaq. Şəhərdaxili yollarda piyadaların rahat hərəkətini təmin etmək üçün piyada yolları, ətraf mühitə dəyən zərəri azaltmaq üçün yaşıllıq zolaqları, sağlamlığa faydalı vərdişləri artırmaq üçün velosiped yolları, ictimai nəqliyyat üçün xüsusi hərəkət zolaqları yaradılacaq. Prospektlərin dördzolaqlı, küçə və yolların isə ikizolaqlı olacağı planlaşdırılır. Füzuli şəhərində daxili yolküçə şəbəkə sxemi və kommunikasiya xətlərinin layihəsi vahid işçi qrupu tərəfindən bütün qurumların rəyi alınmaqla hazırlanıb. Şəhərdaxili yollar inşa olunarkən piyada səkilərinin altından keçəcək elektrik, qaz, su, rabitə, kanalizasiya və yağış sularının axıdılması xətləri ilə birlikdə həyata keçiriləcək.

Bu isə həm vaxta, dövlət vəsaitinin qənaətinə, işlərin optimallaşdırılmasına və yüksək səviyyədə əlaqələndirilməsinə imkan yaradacaq, habelə kommunikasiya şəbəkələrinin paralel çəkilməsi zamanı yarana biləcək problemlərin aradan qaldırılmasına imkan verəcək. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

***Z. Ələddinqızı***



# Dövlətin və xalqın xilaskarı

***Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycan bu gün öz inkişaf tempinə görə, dünyanın lider dövlətləri sırasındadır.***

Ulu Öndərin fəaliyyəti nəticəsində Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub. Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan ictimai-siyasi sabitliyə nail olub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünki uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli yorulmadan çalışırdı. Qısa bir zaman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

## AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ DÖVLƏTÇİLİK İDEYALARININ BƏRQƏRAR OLMASI

1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Şəhər və kəndlərimiz bir-birinin ardınca işğal edilirdi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəifləməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

Dahi Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. 15 iyun 1993-cü il tarixində baş verən hadisə - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi və tənəzzülə uğramasının qarşısının alınması, yeni dövrün tələblərinə uyğun tərzdə islahatların həyata keçirilməsi önəmli idi ki, Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

1994-cü ildə ”Əsrin Müqaviləsi”nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, ”Əsrin Müqaviləsi”nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın ”Əsrin Müqaviləsi”ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: ”1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir”.

”Əsrin Müqaviləsi”nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza və gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilmələri təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir. Bu müqavilə Azərbaycanın dövlət təhlükəsizliyinin təminatçısına çevrildi. Nəinki regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. ”Əsrin Müqaviləsi” sayəsində Azərbaycana birbaşa investisiyalar qoyuldu və ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı. Bununla yanaşı, Azərbaycan beynəlxalq hüquq müstəvisində iqtisadi maraqlarını və iqtisadi hüquqlarını qorumağa başladı. Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Azərbaycan demokratik-hüquqi və dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı.

## YENİ NAİLİYYƏTLƏRLƏ MÜŞAHİDƏ OLUNAN SÜRƏTLİ İNKİŞAF MƏRHƏLƏSİ

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb. Respublikamız, eyni zamanda, bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb. Azərbaycan qarşıdakı onilliyin inkişaf istiqamətlərini müəyyənləşdirib. Qarşıdakı dövrün layihələri ümidverici və irəliyə baxmaq üçün stimulvericidir.

Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiqdir. Azərbaycan durmadan yüksəlir, inkişaf edir və uğurlar qazanır. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycan 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası nəticəsində torpaqlarımız işğaldan azad olundu. Azərbaycan Ordusunun döyüş taktikası dünya ölkələrində öyrənilir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə öz gücünü göstərdi. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilir. 30 ilə yaxın bir zamanda xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. Bu gün Qarabağın işğaldan azad olunmuş hər yerində, hər bir kəndində, böyük quruculuq işləri gedir. Möhtəşəm inşaat layihələri reallaşır, “Ağıllı kənd”lər yaradılır. Bütün bu uğurların təməlində Ulu Öndər Heydər Əliyev siyasəti dayanır.

***Zümrüd BAYRAMOVA***

# "Ermənistan və Azərbaycan üçün ilk dəfə olaraq sülh əlçatandır"



*"Ermənistan və Azərbaycan arasında təxminən otuz ildir davam edən silahlı münaqişənin başa çatması və dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət etmək öhdəliyi götürməsi nəticəsində öz müstəqilliklərini bərpa etdikdən sonra hər iki ölkə üçün ilk dəfə olaraq sülh əlçatandır."*

Bu barədə xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı deyib.

"Üçtərəfli Bəyanat əsasında silahlı münaqişə sona çatdıqdan sonra, 30 illik hərbi işğal dövründə Azərbaycan xalqının uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparır. Münaqişənin başa çatması sülhün qurulması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəliyə aparılması, iqtisadi inkişafa və əməkdaşlığa sərmayə qoyuluşu üçün imkan və real perspektivlər gündəmə gətirir", - deyən Azərbaycanın xarici işlər naziri ölkəsinin bu yanaşma ilə Ermənistana münaqişədən sonrakı normallaşma gündəliyini təklif etdiyini bildirib.

"Azərbaycan bu yanaşma ilə Ermənistana münaqişədən sonrakı normallaşma gündəliyini təklif edib. Hər iki tərəf bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və onlara hörmətə əsaslanan dövlətlərarası münasibətlərin çərçivəsini təşkil edəcək ikitərəfli sazişin mətni üzərində danışıqlar aparır. Son bir neçə həftə ərzində Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişinyovda keçirilən danışıqlar tərəflərin əsas narahatlıqları daha yaxşı başa düşməsinə xidmət edib və bəzi məsələlərlə bağlı fikir ayrılıqlarını daraltmağa kömək edib. Azərbaycan normallaşma gündəliyinə sadiq qalır və ikitərəfli müzakirələrin gündəliyini formalaşdıran üç konkret istiqamət: dövlətlərarası münasibətlərin qurulmasına dair sazişin tezliklə imzalanması, dövlət sərhədinin delimitasiyası, və regionda nəqliyyat kommunikasiyalarının açılması üzrə qalan fikir ayrılıqlarını aradan qaldırmaq üçün Ermənistan tərəfindən qarşılıqlı siyasi iradə gözləyir."

O qeyd edib ki, Ermənistan tərəfindən Azərbaycanın, o cümlədən Qarabağ bölgəsinin suverenliyi və ərazi bütövlüyünün bəyan edilərək tanınması ehtiyatlı optimizm üçün zəmin yaradır. Bununla belə, həmişə olduğu kimi, əməllər sözlərdən daha yüksək səslə danışır. Ermənistan rəhbərliyinin bəyanatları bu ölkənin faktiki davranışında da öz əksini tapmalıdır ki, nəticədə irəliləyiş əldə olunsun.

"Bu kontekstdə Ermənistanın Azərbaycanın suveren ərazilərində davam edən qeyri-qanuni hərbi mövcudluğu, daxili işlərimizə davamlı müdaxilə, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin erməni əsilli yerli sakinləri arasında dialoqa əngəl yaratması və beynəlxalq səviyyədə, o cümlədən ATƏT çərçivəsində genişmiqyaslı qarayaxma kampaniyasının aparılması bəyan edilmiş bu öhdəliyə ziddir və əksinə, Azərbaycan və Ermənistan arasında dövlətlərarası normallaşma üzrə danışıqlara əsas maneədir", - deyə nazir vurğulayıb.

# Volkan Bozkır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ çiçəklənən diyara çevriləcək"

***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Şuşada keçirilən "Yenidənqurma, sülh və inteqrasiya: Enerji, iqtisadiyyat, ətraf mühit və kapital" mövzusunda beynəlxalq tədbir həm zamanında keçirilir, həm də çox yararlı olacaq. Bu tədbirə sabiq prezidentlər, baş nazirlər, xarici işlər nazirləri və digər nümayəndələr qatılıblar. Bu gün Azərbaycan rəsmiləri tərəfindən çox mühüm məlumatlar verildi. Bu məlumatlar Nyu-Yorkda BMT-nin Baş katibi ilə görüşümüzdə çox yararlı olacaq. Burada bütün eşitdiklərimizi, gözləntilərimizi həmin görüşdə çatdıracağıq.***



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, BMT Baş Assambleyasının 75-ci prezidenti Volkan Bozkır deyib.

"Şuşaya sonuncu dəfə keçən il gəlmişdim. Ötən müddətdə Şuşada çox önəmli irəliləyişlər olub. Gələcəyə yönəlik müsbət addımlar atılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Qarabağı daha yaxşı yerlərə, çiçəklənən diyara çevirəcək. Ermənistan isə təxribatlar, dağıntılar törədiyi Qarabağın əvvəlkindən daha gözəl hala gətirildiyini görəcək", - deyə BMT Baş Assambleyasının 75-ci prezidenti söyləyib.

Azərbaycanla Ermənistan arasındakı sülh danışıqlarına toxunan Volkan Bozkır Azərbaycanın 30 il müddətində baş verən təxribatlara baxmayaraq barışı daha çox istədiyini bildirib. Eyni zamanda, deyib ki, erməni diasporu, dünyanın müxtəlif yerlərində, yaxşı şəraitdə yaşayan ermənilər sülh istəmirlər, öz yerli əhalisinin müsbət addım atmasına mane olurlar. "Çünki onlar illərlə Azərbaycana, Türkiyəyə səbəb olmadan düşmənçilik mövqeyi bəsləyiblər. Yalnız Azərbaycanın istəməsi ilə barış olmur. Amma Azərbaycanın güclü mövqeyi, dünyadakı hörməti bu məsələlərin həlli istiqamətində önəmli rol oynayacaq. Biz Türkiyə olaraq hər zamana qardaş Azərbaycanın yanındayıq", - deyə V.Bozkır vurğulayıb.

# "Büdcə gəlirlərinin artımı inkişafımızın ifadəsidir"



KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

**"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər bir daha göstərir ki, iqtisadiyyatımız davamlı və inkişafdadır. Əlbəttə bu, dövlətimizin rəhbəri cənab İlham Əliyevin düşünülmüş iqtisadi siyasətinin nəticəsi olmaqla, hökumətin, müvafiq orqanların büdcə sisteminin formalaşdırılması sahəsində həyata keçirdikləri birgə səmərəli tədbirlərin göstəricisidir." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, dünyada baş verən iqtisadi çətinliklər, geosiyasi gərginliklər, inflyasiyanın yüksəlişi zəminində ölkəmizdə iqtisadi artımın əldə edilməsi müsbət dəyərləndirilməlidir və bu, bilavasitə gələcək uğurlara imkan yaradacaqdır.**

"2023-cü ilin üç ayı ərzində əvvəlki ilin eyni dövrü ilə müqayisədə Ümumi Daxili Məhsulun, dövlət büdcəsi gəlirinin artımı müsbət haldır. Xüsusilə qeyri-neft sektorunda büdcə gəlirləri payının artması nikbinlik yaradır. Mövcud reallıqlar-böyük dövlətlər arasında iqtisadi əlaqələrin zəiflədiyi, müharibələrin baş alıb getdiyi, ixracın, idxalın çətinləşdiyi, bir çox ölkələrin iqtisadi-siyasi böhran şəraitində yaşadığı bir dövrdə Azərbaycan iqtisadiyyatının dayanaqlı, dinamik inkişafda və rəqabətə davamlı olması təqdirəlayiqdir.



Bu il dövlət büdcəsinə 3 milyard manatdan artıq əlavə vəsaitin daxil olacağı ilə bağlı proqnozlar reallığa əsaslanır. Bu gün ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və təhlükəsizliyin gücləndirilməsi qarşıda duran birinci dərəcəli vəzifədir. Vəzifənin aktuallığı və bu sahədə dövlətimizin rəhbərinin gördüyü tədbirlər 44 günlük müharibədə özünü göstərdi və sözünü dedi. Hər bir vətəndaş öz ordusunu daha güclü, sərhədlərini daha təhlükəsiz, özünü və torpağını azad görmək arzusundadır. Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi üçün 1 milyard 105 milyon manat əlavə vəsait ayrılması hər bir kəsin ürəyindəndir.

İndi işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdış Proqramının uğurla yerinə yetirilməsi, görülən möhtəşəm işlər, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və sakinlərin öz ata-baba yurdlarına daha tez qayıdışı hər bir azərbaycanlını ciddi düşündürür. Büdcədən bu məqsədlə nə qədər çox vəsait ayrılsa yenə də azdır. Çünki tikinti-abadlıq-bərpa işlərinin həcmi çox böyükdür. Ərazilərin bərpası məqsədi ilə 2 milyard 260 milyon manat əlavə vəsait ayrılmasını təqdirəlayiq hal hesab edirəm.

İnsanların müdafiəsi işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən tədbirlər abadlıq, yenidənqurma, bərpa işləri, yeni məktəblərin, xəstəxanaların, uşaq bağçalarının, sosial obyektlərin tikilməsi sosial məsələlərdir, insanların sosial-rifah halının yaxşılaşdırılması üçündür. Büdcə gəlirləri artımının bu istiqamətlərə yönəldilməsi sosial yönümlülük prinsipinə əməl olunması, insanlara qayğı və diqqətin ifadəsidir. Digər sahələrə ayrılan vəsaitlər də gələcək inkişafımıza, xarici əlaqələrimizin, əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. Bu da beynəlxalq aləmdə dövlətimizin nüfuzunun yüksəldilməsi üçün vacibdir. Sahibkarlığın inkişafı üçün ayrılan əlavə vəsait dövlət proqramında nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsinə əsaslanır və əhəmiyyətlidir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Ulu Öndərin xalqımız qarşısındakı xidmətləri heç vaxt unudulmayacaq!



Oğuz rayonunda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib



“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində iyunun 7-də YAP Oğuz rayon təşkilatı tədbir keçirib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov qəlbi daim Azərbaycan ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. Vurğulayıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyətini uğurla davam etdirən Yeni Azərbaycan Partiyası regionun ən böyük siyasi partiyasıdır.

Oğuz rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov Ümummilli Lider Heydər Əliyevin şərəfli həyat yolu, zəngin və çoxşaxəli fəaliyyətindən bəhs edib. Qeyd edib ki, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev Azərbaycanı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxararaq müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı söyləyib ki, Ulu Öndər Heydər Əliyev bütün dövrlərdə öz xalqına sədaqətlə xidmət edib. Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov deyib ki, Vətəninə, xalqına sədaqətlə xidmət etmiş Ulu Öndər Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən müdrik dövlət xadimidir. Azərbaycan gənclərinin əsl vətəndaş kimi formalaşmasında Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var.

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru Müslümat Allahverdiyeva vurğulayıb ki, müasir müstəqil Azərbaycan Ümummilli Liderin şah əsəridir. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri heç vaxt unudulmayacaq. Bu gün qalib və qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edir, möhtəşəm uğurlar qazanır.

İkinci Qarabağ müharibəsi iştirakçısı Sənan Rəşidli, Oğuz rayon Təhsil sektorunun əməkdaşı Günel Abdullayeva, Vətən müharibəsi şəhidi, Azərbaycan Bayrağı ordenli Tural Məmmədovun atası Arif Məmmədov və Oğuz rayon Mərkəzi Xəstəxanasının əməkdaşı Lalə Salamova çıxışlarında vurğulayıblar ki, Ümummilli Liderin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə görülən işlər respublikamızın qüdrətinin artmasına, Azərbaycanın tarixi nailiyyətlər qazanmasına xidmət edib. Daha sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar təqdim edilib. Tədbir konsert proqramı ilə davam edib.

# Dünyanın etiraf etdiyi REALLIQLAR

***Artıq regionda yaranan, daha dəqiq desək, Azərbaycanın yaratdığı reallıqlar dünyanın diqqətini həm cəlb edir, həm də bütün dünya tərəfindən bu reallıqlar etiraf edilir. Etiraf edilir ki, regionda digər dövlətlərdən fərqli olaraq, Azərbaycan məhz Avropa üçün də, Qərb üçün də, hətta İsrail üçün də həyati vacib tərəfdaş olaraq qəbul edilir. Məsələn, ABŞ-ın dünyaca məşhur “Newsweek” jurnalında deyilənlər öz əksini tapir və bütün bunlar müəllif tərəfindən xüsusilə qeyd olunur.***




TƏHLİL

Azərbaycanın Ermənistan üzərində zəfəri artıq çoxdandır ki, Cənubi Qafqazda sabitliyi möhkəmləndirən faktor kimi dəyəndirilməkdədir. Elə sözügedən nəşrdə dərc olunan yazıda bu məqamın vurğulanması xüsusilə diqqəti cəlb edir. Sözsüz ki, Azərbaycanın öz ərazisinə nəzarəti bərpa etməsi bütün regionda sabitliyi möhkəmləndirməlidir. Əvvəla ona görə ki, iki Cənubi Qafqaz ölkəsi arasında 30 ildən yuxarı davam edən münaqişənin nəhayət başa çatması elə sabitliyə əsaslı zəmin deməkdir. Digər tərəfdən də Azərbaycanın istənilən sahədə potensialının olması, imkanlarının region ölkələrinin imkanlarından dəfələrlə üstün olması ölkəmizin sabitliyə töhvə vermək əzmini təsdiqləyir, hansıki bu məqamlar dünyaca məşhur olan nəşrdə müəllif tərəfindən açıq-aşkar şəkildə qeyd olunur.

Sözsüz ki, ölkəmizin region ölkələri arasında söz sahibi, eləcə də lider olması kimləri isə narahat etməyə bilməz. Hansısa ölkələrin bundan qıcıqlandığı yenilik deyil və hətta gözlənilən idi. Söhbət təkcə Ermənistan kimi cırtdan dövlətdən, tamamilə iflas həddində olan ölkədən getmir, Rusiya və İranın timsalında bölkədə öz varlığını təsdiq etmək üçün dəridən-qabıqdan çıxan ölkələrdə də bu qıcıq hiss olunur. Çünki əvvəla, bu ölkələr Azərbaycanın potensialından narahatdırlar və ölkəmizin istənilən anda həlledici qərar qəbul etmək imkanı onlar üçün heç də arzuolunan deyil. Digər tərəfdən də gücü, qüdrəti artan Azərbaycan onların bölgədə dilinin qısalması deməkdir ki, bu da onların həzm edə bilmədiklərindəndir. Üstəlik, Azərbaycanın məhz İsraillə hərbi əməkdaşlığı rəsmi Tehranı narahat etməyə bilməz, çünki İran özünə düşmən bəllədiyi bir ölkə ilə Azərbaycanın əlaqələrinə biganə deyil. Son bir neçə ildə İranın Azərbaycana qarşı dini ekstremist İslam Müqavimət Hərəkatını yaratması və dəstəkləməsi, “radikal ekstremist dini ideyaları” təbliğ etməsi, Qərb, İsrail və yəhudilərə məxsus obyektlərdə planlaşdırılan sui-qəsd və terror aktları vasitəsilə Bakını sarsıtmağa çalışması heç də təsadüfi sayılmır. Bütün bunlar İranın Cənubi Qafqazda sabitliyi pozmaq cəhdləri olaraq diqqətdən yayınmır və elə dünyaca məşhur nəşrin, “Newsweek” jurnalının bu barədə qeyd etməsi təsdiq edir ki, reallıqlar bütün dünyada çox yaxşı görünür. Çox yaxşı görünür və qəbul olunur ki, Ermənistanla münaqişədə ölkəmizin qələbəsi rəsmi Tehran üçün təkcə Azərbaycanın qələbəsi sayılmır, İran tərəfi buna bütövlükdə rəqiblərinin qələbəsi kimi baxır və ona görə hələ də həzm edə bilmir. Rusiyanı da qıcıqlandıran məsələlər var, hərçənd ruslar bunu göstərməməyə çalışırlar. Əvvəla, indi bütün danışıqlarda Bakının qalib tərəf olaraq iştirakını görmək, bunu müşahidə belə etmək Moskva üçün heç də xoş deyil, çünki ruslar qalib ölkəyə hansısa diqtə etmək kimi şanslarının olmamasının fərqindədirlər. Digər tərəfdən də bölgədə sabitliyi təmin edən, sülhün bir addımlığında olan Azərbaycanın Avropanın enerji təminatçısı kimi çıxış etməsi Kreml üçün ürəkaçan məqam sayıla bilməz, çünki Azərbaycan Rusiyanın enerji ixracına alternativ təqdim edir və beləliklə də Rusiyanın avropalılara qarşı əsas təsir etmə rıçaqlarını zəiflədir, hətta aradan götürür. Məhz bütün bu reallıqlar, ölkəmizin yaratdığı reallıqlar fonunda bu iki ölkə Azərbaycanın uğurlarından heç də sevincək ola bilməz və bunun elə sözügedən nəşrdə də öz əksini tapması təsdiq edir ki, həqiqətlər dünya tərəfindən də qəbul olunmaqdadır.

İşğaldan azad olmuş torpaqlarda Azərbaycanın reallaşdırdığı böyük bərpa və abadlıq işləri diqqətdən yayına bilməz. Bütün dünya bu prosesi diqqətlə izləyir və Böyük Qayıdış planı elə məhz dünyanın marağına səbəb olub. Ələlxüsus həmin ərazilərin minalardan təmizlənməsinin, əkin-biçin üçün yararlı hala salınmasının nəticə etibarı ilə kənd təsərrüfatına müsbət təsir edəcəyi də qəbul olunur. Bir çox tanınmış siyasətçilər belə bu məsələlərin böyük əhəmiyyətə malik olduğunu qeyd edirlər. Bəziləri bunu öz ölkələri üçün də faydalı hesab edirlər. Xüsusilə də sülhün əldə olunması fonunda buna maraq daha böyükdür. “Azərbaycanla Ermənistan arasında sülh əldə olunarsa, İsrail bundan çox faydalana bilər”, deyən İsrailin keçmiş rabitə naziri Ayyub Kara dünyaca məşhur olan “Jerusalem Post” nəşrində dərc etdiyi yazısında ərazilərin mina təhlükəsindən azad olunmasının öz ölkəsi üçün də əhəmiyyətini vurğulayıb. O, həmin yazısında qeyd edib ki, mina təhlükəsi azaldıqdan sonra regionun kənd təsərrüfatı potensialı kəskin şəkildə artacaq, hansıki bu, Azərbaycanın kənd təsərrüfatı məhsullarının İsrailə ixracının və İsrail texnologiyasının Azərbaycana ixracının əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Bəli, keçmiş rabitə naziri Ayyub Kara haqlıdır, çünki həqiqətən də işğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi taxıl zəmiləri ilə zəngin və məhsuldar region yaratmağa imkan verəcək və bu zaman Azərbaycana İsrail texnologiyasından istifadə edəcək, hansıki həmin məhsulu, həmin buğdanı da elə məhz İsrail idxal edə bilər. Diqqətə çatdıraq ki, Ukraynadakı müharibə fonunda taxılla bağlı yaranmış arzuolunmaz vəziyyəti nəzərə alsaq bu, İsrail üçün də çox maraqlı olacaq, çünki həmin ölkənin ərzaq təhlükəsizliyini təmin etmək baxımından əvəzsizdir.

Bütün bu sadalananlar onu deməyə əsas verir ki, bəli, həqiqətən də Azərbaycanın yaratdığı reallıqlar həm dünyanın diqqət mərkəzindədir, həm də bu reallıqların əhəmiyyəti qəbul da olunur, etiraf da edilir. Doğrudur, bu reallıqların əhəmiyyətini məhz Ermənistan tərəfinin və ermənipərəst ölkələrin timsalında görməyənlər, daha dəqiq desək, görmək istəməyənlər də ola bilər. Amma artıq dəfələrlə müxtəlif müstəvilərdə vurğulanır ki, Ermənistan özü belə bu reallıqlardan faydalana bilər. Ümumiyyətlə, sülh sazişindən, regionda sülhün təmin olunmasından, məhz Azərbaycanın yaratdığı reallıqlardan Ermənistanın belə qazanacağı çox şeylərin olduğu qeyd edilir. Həmin reallıqlar bu gün marginallaşmış bir durumda və səfalət içərisində olan ölkə, yəni Ermənistan üçün acınacaqlı durumdan xilas olmaq deməkdir. Hazırda küncə qısılmış bir vəziyyətdə olan Ermənistan adlı bir ölkə Azərbaycan və Türkiyə ilə ticarət edərək iqtisadiyyatını bərpa etmək, inkişaf etmək şansını qaçırmamalıdır, sözsüz ki, ermənilər bunu dərk edəcəkləri halda bu şansdan istifadə edə bilərlər. Bu şans erməni xalqı, haylar üçün nəinki münaqişəsiz həyat sürmək, müvafiq iqtisadiyyata və həyat səviyyəsinə malik olmaq deməkdir. Əks halda yenə də Rusiya və İran kimi ölkələrə, bəzən də Qərbə boş yerə güvənərək daha dəhşətli fəlakətə düçar olacaqlar. Bax elə ən böyük reallıqlardan, Azərbaycanın yaratdığı reallıqlardan biri də məhz budur. Odur ki, ölkəmizlə, xalqımızla sülh şəraitində yaşayan qonşu dövlətlər bundan qazana, əksini düşünənlər belə itirə bilərlər, hansıki bu reallıqların etirafı dünya mətbuatında da öz əksini tapır.

***İnam Hacıyev***

# “Mental dəyərlər”ə qurban gedən qızlar

***Ölkəmizdə, xüsusilə də bir çox bölgələrimizdə qadağalara mental dəyərlər deyirlər. Qızların xaricdə, yaxud elə doğma Bakıda təhsil alması da bura aiddir. Belə ki, bir sıra bölgələrdə yaşayan ailələr qızlarının təhsil alması üçün Bakıya yollanmasını, eyni zamanda Bakıda yaşayan bir sıra ailələrin də qızlarının təhsil almaq üçün xaricə getməsini istəməməsi sirr deyil. Çünki bəzilərinə görə bu, özbaşınalıq və ədəbsizlik kimi dəyərləndirilir. Onlar qızlarına savadlı şəxsiyyət olmaq üçün imkan yaratmaq əvəzinə, köstək olaraq övladlarını zorla ərə verirlər.***








Azərbaycanda bir çox qız var ki, təhsilini yarım qoyur. Onlardan bəzisi ya zorla evləndirilir, ya da bir çoxu ”mental dəyərlər” adı altında əzilərək taleyinə boyun əyir və təhsil almır. Hətta bölgələrdə yaşayan bir çox qızlar var ki, universitetə qəbulolma sevincini belə yaşaya bilmir. Çünki onların bir çoxu bunun, sadəcə, bir arzu olaraq qalacağının fərqindədir. Bölgələrdə olan əksər ailələrdə Bakı adı çəkildikdə söz-söhbət yaranır.

## Bəs, bütün bunlara səbəb nədir? Bu halların qarşısı necə alınmalıdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Araşdırmalara görə, Vandakı Saray, Güzelkonak və Gevaş Region məktəblərində təhsil alan təxminən 1200 şagirdin yalnız 20 faizi qızdır. Buradakı şagirdlərdən qızların niyə təhsil almasına qarşı olunduğu barədə soruşulub.

Cavabları təqdim edirik:

**Zuhal Yücel (8-ci sinif)**

Məktəbə ilk olaraq kəndimizdə başlamışam. Mən Sırlı kəndindənəm. Bizim kənddə, adətən, qızları məktəbə göndərmirlər. Məktəbə gedən ilk qız mən idim. Bundan sonra digər qızlar da yavaş-yavaş başladılar. Ataları oğlanlarla münasibətdə olduqları üçün qızlarını məktəbə göndərmək istəmirlər. Atam çox istəyir ki, oxuyum. Düşünürəm ki, onlar oğlan və qızları bərabər görməli, ayrı-seçkilik etməməlidirlər. Burada oxumaq çox gözəldir. Atam sürücüdür. Anam isə evdar qadındır və çox xəstədir. Ona görə də həkim olmaq istəyirəm. Həkim olandan sonra böyük şəhərlərdə işləyəcəyəm.

**Özkan Öztürk (8-ci sinif)**

Təəccüblənirəm ki, qızlar oxudulmur. Kəndimizin adı Doğutaşdır. Atam fəhlədir. Biz dörd qardaşıq. Maddi durumumuz yaxşı olmadığı üçün bacım orta məktəbi bitirdikdən sonra məktəbə getmədi. Müəllim olmaq istəyirdi. Qızların oxumamasına təəccüblənirəm. Ataları istəyirlər ki, övladları cahil qalsınlar, çünki onlar özləri cahil qalıblar. Məncə, oğlan və qızlar arasında heç bir fərq yoxdur. Hər ikisi eyni işi görə bilər. Mən öz qızlarımı məktəbə göndərəcəyəm. Ətrafıma baxanda cahilliyin dəyişməsini istəyirəm.

**Yasemin Gülacar (8-ci sinif)**

Mən hüquqşünas olacağam və haqlıları müdafiə edəcəyəm. Ailəm Kazlıgöl kəndində yaşayır. Atam imam olduğundan daim yer dəyişirik. Kənddəki qızların yarıdan çoxu təhsilli deyil. Ailələr deyir ki, “qızımızı məktəbə göndərsək, gələcəkdə yolunu azacaq”. Biz səkkiz uşağıq. Atam istəmədiyi üçün böyük bacılarım oxumadı. Haqsızlığa dözə bilmədiyim üçün haqlı olanları müdafiə etmək istəyirəm.

**Qıyasəddin Bilik (6-cı sinif)**

Biz yeddi qardaşıq, ən böyüyü mənəm. Bizim kənddə qızlara dərs vermirlər. Atam oğlan-qız fərqi qoymur. Atalar qızlarını oxutmayaraq həm günah edir, həm də haqq yeyirlər. Kişilər bir divar tikirlərsə, qadınlar 10 iş görür. Paltar yuyur, qab yuyur, çörək bişirir, yemək bişirirlər. Böyüyəndə qızların maarifləndirilməsi kampaniyasına başlamaq istərdim.

**Abdurrahim Yurgun (6-cı sinif)**

Ailəm Atalan kəndində yaşayır. Kənddəki məktəb beşinci sinfə qədərdir. Atam xəstə olduğu üçün işləyə bilmir, amma qardaşım tikintidə işləyir. Bacım beşinci sinfə qədər oxuyub. Davam etmək istəmədi. Qızlar da oxusun, onların da haqqı var. Onlar cahil olmamalıdırlar. Qızlarını oxumağa göndərməyən atalar niyə belə edir, bilmirəm. Deyirlər ki, qızlar məktəbə getməsin, ayıbdır.

## Niyə qızlar daha çox oxumalıdır?

Çünki oxumaqla peşə sahibi olan qadın ərindən, ailəsindən asılı olmadan ehtiyacını ödəyə bilər. Bu sayədə heç kimə ehtiyac duymadan həyatına ən pis vəziyyətdə belə davam edə bilər.

Belə qadınlar evlilik həyatında həyat yoldaşının bilərəkdən və ya bilməyərəkdən ona müraciət edə biləcəyi iqtisadi şiddətə hazırdır. İşi və xüsusən də gəliri varsa, bu mövzuda özünü və övladlarını daha yaxşı qoruya bilər. Təhsilini başa vurmuş qadınların həyata baxışı daha geniş və sağlam olur. O, müxtəlif insanlarla müxtəlif proseslər yaşayıb və çox təcrübəlidir.

Savadlı qadınların uşaqlarına qarşı davranışları, təhsil haqqında bilgiləri də fərqlidir. Onlar övladlarına ən yaxşı təhsili vermək üçün çalışırlar. Qızlarınızı oxudun. Çünki oxusalar, ”dikbaş” yox, ”Başı dik” olarlar. Oxusalar, güclü olarlar və biri tərəfindən qorunmağa ehtiyac duymazlar.



**Təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi:** ”Qız uşaqlarının təhsil almalarına maneçilik törətmək çox absurd və qəbahət bir haldır. Çünki biz çalışmalıyıq ki, qızlar təhsil alsınlar. Təbii ki, burada ”mental dəyərlər” var və bu dəyərlər xüsusilə də qız uşaqlarının arzularının üzərindən xətt çəkir. Onlar bu dəyərlərin qurbanı olurlar.

Son dövrlərə nəzər yetirsək, xaricdə təhsil alan qızlarımızın sayı artan temp üzrə inkişaf edir. Bu, çox müsbət haldır. Amma buna baxmayaraq təəssüflər olsun ki, son dövrlər oxumaq istəyən qızların sayında da azalma var. Əsasən, regionlarda qızlar 16-17-18 yaşa çatanda erkən nikaha cəlb olunurlar. Bu, onların təhsildən yayınmasına birbaşa təsir edir.

Cəmiyyətdə inam və maarifləndirmə işləri aparılmalıdır. Biz məsələyə öz prizmamızdan baxdığımız zaman, əlbəttə istəyərik ki, bütün qız uşaqları oxusun. Amma faktiki cəmiyyətdə müəyyən hallar var ki, bəzi ailələrdə də fərqli düşüncələrə səbəb olur. Mən əsasən burada qızını oxutmaq istəyib də onlara mane olan bəzi səbəbləri demək istəyirəm. Belə ki, bəzən olur ki, qız uşağıdır, Bakıda oxuyur və hansısa bir vicdansızın ucbatından onun adına xələl gəlir. Yaxud yol keçərkən nə qədər yol nəqliyyat hadisələri görürük ki, həyatını itirən sərnişinlər olur. Bu məsələlər valideynləri övladları ilə bağlı qərar verməkdə bir qədər narahat edir. Amma bunun müqabilində bəzi ailələr qızlarını konkret olaraq oxutmaq istəmir. Biz bunlarla mübarizə aparmalıyıq. Bunun üçün də Elm və Təhsil Nazirliyi, onun regional bölmələri, eyni zamanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, dövlət büdcəsini çapıb talayan bəzi QHT-lər var ki, bu istiqamətdə layihələr təqdim edir, amma heç bir iş görmürlər. Bu təşkilatlar bu istiqamətdə işlər aparmalıdır. Düşünürəm ki, təhsildən yayınma hallarına yol verən şəxs barədə qanunvericiliyin şərtləri sərtləşdirilməlidir. Hər birimiz istəyirik ki, cəmiyyətdə, xüsusilə, ali təhsilli qızların sayı artsın. Mən hər zaman qızların təhsil almasının tərəfdarıyam və daima da bunu dəstəkləyirəm”.



**Fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub:** ”Ümumiyyətlə, bizim valideynlərin övladlarına baxışı bəzən qəbuledilməzdir. İstər qız, istərsə də oğlan övladı olsun, təəssüf ki, bəzi ailələr övladlarının potensialını çox aşağı dəyərləndirir. Hətta bəzən onları təhqir edir, əhval-ruhiyyəsini və şəxsiyyətini sındırırıq. Bu, qəbuledilməzdir.

Övladı xoşbəxt də, bədbəxt də edən ata-anadır. Qız övladlarına münasibətdə bu məsələ bir qədər də qəlizdir. Yəni, diskriminasiya var. Həm qız övladı həssasdır, zərifdir, daha çox himayəyə və müdafiəyə ehtiyacı var. Amma qız övladına qarşı diskrminasiya aşırı dərəcədə qızı inzivaya çəkmək həmin qızı bədbəxt etmək deməkdir. Qızlar da təhsil almalıdır, onun da gələcəyi var və qızlar da ailə quracaq. O da işıqlı gələcək üçün ata-ana tərəfindən hazırlanmalıdır. Bu məsuliyyətin əksəriyyəti valideynin öhdəsinə düşür. Təəssüflər olsun ki, bəzi hallarda qızların təhsildən yayındırılıb tez ərə verilməsinin şahidi oluruq. Özü də valideynin diktəsi ilə və məcburi şəkildə bu baş verir. Bütün bunlar dəhşətdir.

Biz rəftar və düşüncəmizi dəyişməli, dünyaya bir qədər açıq gözlə baxmalıyıq. Təbii ki, namus, qeyrət və əxlaq vacib elementlərdir. Mən bunlara çox yüksək dəyər verirəm. Amma bu aşırı dərəcədə də olmamalıdır ki, biz övladımızın namusunu-qeyrətini qoruyuruq deyə onu təhsildən yayındırıb evdə həbs edək. Bu, yolverilməzdir və dəyişməlidir. Dəyişmənin yolu da maarifləndirmədir. Dayanmadan maarifləndirmə lazımdır. Çıxışlar etmək, kitablar yazmaq, verilişlər hazırlamaq lazımdır ki, bütün ailələr bunu bilsin ki, qızlar təhsil almalıdır”.

***Ayşən Vəli***

ARAŞDIRMA

# SOS: Qurunu məhv edən insan okeanı hədəf alıb

*Okeanlarda plastik çirklənmə ilə bağlı araşdırma aparan bir qrup alim 1979-cu ildən bəri toplanan tullantıların statistikası barədə qeydləri təhlil edib. Bu analizdə okeanlardakı plastik tullantıların sayını təxmin etmək üçün riyazi modelə qeydlər əlavə edilib. Nəticələrə görə, okeanlarda dünyanın təxminən 70 faizini əhatə edən təxminən 171 trilyon plastik-polietilen parçası var. Alimlər xəbərdarlıq edirlər ki, okeanlardakı plastik sıxlığı ilə bağlı heç bir tədbir görülməsə, tullantılar 2040-cı ilə qədər təxminən 3 dəfə arta bilər.*



Araşdırmanın müəllifi 5 Gyres İnstitutunun Dr. Markus Eriksen, 2005-ci ildə okeanları çirkləndirən plastik sayının 16 trilyon olduğu halda, bu rəqəmin 18 il ərzində təqribən 171 trilyona yüksəldiyini bildirir. Eriksen, 2005-ci ildən sonra baş verən ciddi artımı təbiəti qoruma proqramlarına etinasız yanaşılması, həmçinin, indiyədək bu dərəcədə dərin araşdırılma aparılmaması ilə bağlayır.





### Dəniz canlıları plastik yeyir

Hər il təbiətə atılan və əriməsi illərlə vaxt aparan plastiklərin yaratdığı çirklənmə səbəbindən okeanlardakı bir çox heyvan plastiki qida hesab edir, yeyir və mədələri plastiklə dolu olduğu üçün aclıqdan ölürlər. Plastik tullantıların ən çox olduğu okeanlardan biri Atlantik okeanının olduğu təxmin edilir. Problem ilə əlaqədar, açıq dənizlərdə biomüxtəlifliyin qorunması üçün uzun illər davam edən danışıqlardan sonra bu il martın 5-də Birləşmiş Millətlər Təşkilatında razılaşma əldə edilib. Bu müqavilə okeanların 30 faizini qorumaq məqsədi daşıyır. Araşdırmanın nəticələri PLOS ONE elmi jurnalında dərc olunub.

Statistik məlumatlara görə, dünyada hər 1 dəqiqədə 1 milyon polietilen torba zibil qutusuna atılır. Polietilenin çürüyərək yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 il lazım gəlir. Rahat alış-verişin etalonu hesab edilən bu torbaların dənizə atılması bir çox dəniz canlısının mədəsində plastik tullantıların yığılmasına səbəb olur. Çünki okeanda səfərdə olan gəmilər ildə 4 milyon kiloqrama qədər polietilen torbanı dənizə atır. Ekoloqlar deyirlər ki, dünyanın quru səthinin polietilen torba işğalından qurtulmasının səbəbi okean dibinin sellofan torba və plastik qabların qəbiristanlığına çevrilməsidir.

### Vəhşi təbiəti qoruyaq, ya qorumayaq?

Birləşmiş Millətlər Təşkilatı dünya okeanlarını qorumaq üçün tarixi sazişi 10 illik danışıqlardan sonra imzaladı. Açıq Dəniz Müqaviləsi dəniz təbiətini qorumaq və bərpa etmək üçün 2030-cu ilə qədər dənizlərin 30 faizini qorumaq məqsədi daşıyır. Danışıqlar maliyyələşdirmə və balıqçılıq hüquqları ilə bağlı fikir ayrılıqlarına görə illərdir təxirə salınırdı.



BMT-nin Dəniz Hüququ Konvensiyası kimi tanınan okeanların mühafizəsi üzrə sonuncu beynəlxalq saziş 40 il əvvəl 1982-ci ildə imzalanıb. Bu müqavilə bütün ölkələrin balıq tutmaq, gəmiçilik və kəşfiyyat hüququna malik olduğu "açıq dənizlər" adlanan ərazi yaratdı.



Okeanın təqribən üçdə ikisini milli sərhədlərdən kənarda əhatə edən saziş vəhşi təbiəti qorumaq və açıq dənizlərin genetik ehtiyatlarını bölüşmək üçün böyük dəniz mühafizə zonalarının yaradılması üçün hüquqi baza təmin edəcək. Müqavilənin qüvvəyə minməsi üçün 60 ölkə tərəfindən ratifikasiya edilməsi lazımdır.

### İnsan okeanı həm sümürür, həm çirkləndirir

Qeyd edək ki, 1982-ci ildən bəri dənizlərlə bağlı ən mühüm saziş 1982-ci il Birləşmiş Millətlər Təşkilatının Dəniz Hüququ Konvensiyası (UNCLOS) dünya dənizlərinin konstitusiyası kimi qəbul edilirdi. UNCLOS, dövlətlərin suverenliyinin sərhədlərini müəyyən edir, həmçinin açıq dənizlərdə hüquq və vəzifələri müəyyən edir. UNCLOS-a əsasən, dövlətlər kontinental şelf və eksklüziv iqtisadi zona daxilində resurslardan istifadə etmək hüququna malikdirlər.

Açıq dənizdə bütün dövlətlərə resurslara çıxış azadlığı verilir. Eyni zamanda, dövlətlərin dəniz mühitini və dəniz canlı resurslarını qorumaq öhdəliyi var. UNCLOS-un milli suverenlik zonasından kənar ərazilərdə açıq dənizlər və dəniz dibi ilə bağlı müddəaları zamanla müxtəlif saziş və konvensiyalarla işlənib hazırlanıb. Bunlar, ümumiyyətlə, dəniz dibi mədənçilik, balıqçılıq, tullantıların atılması və gəmiçilik fəaliyyətləri ilə bağlıdır. Bununla belə, 1982-ci il konvensiyasına əsasən okeanların yalnız 1 faizi qoruna bilərdi.

### Okeanlar niyə bu qədər vacibdir?

Okeanlar planetin ən böyük istilik qəbuledicisidir. İqlim dəyişikliyinin nəticəsində yaranmış qlobal istiliyin 90 faizini okeanlar udur. Okeanlar həm də çox məhsuldar bir karbon mənbəyidir və antropogen CO2 emissiyalarının 23 faizini udur. Həmçinin, bəzi karbon hissəciklərinin min illərdir dəniz dibi çöküntülərində mühafizə edildiyi ehtimal edilsə də, bu məsələ həll də tam araşdırılmayıb.

IUCN-in məlumatına görə, okeanlardakı bütün canlıların ən azı 10 faizi yox olmaq ərəfəsindədir. Mütəxəssislər bu problemin iki səbəbi olduğunu deyirlər. 1-ci səbəb ekoloji çirklənmə, 2-ci səbəb həddindən artıq balıq ovu olaraq göstərilir. Eyni zamanda, kosmetik və sağlamlıq sahəsində son illər dəniz dibi canlılarından istifadə də çoxalıb. Lakin belə davam etsə, okeanlarda canlı tapmaq olduqca müşkülə çevriləcək.

***Lalə Mehralı***

# İnkişafın Azərbaycan modeli: aqrar sahənin inkişafına dövlət qayğısı

***Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi islahatlar kursu bu gün bütün sahələrdə müsbət nəticələrini verməkdədir. Ulu öndərimizin ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycan keçmiş İttifaqın kənd təsərrüfatının kompleks inkişaf etdiyi qabaqcıl respublikalarından birinə çevrilmişdir. Həmin dövrdə ölkəmizdə kənd təsərrüfatının elmi əsaslarla inkişafı nəticəsində bu sahədə zəngin təcrübə formalaşmışdır. Müstəqillik əldə etdiyimiz ilk illərdən ümummilli liderimiz Heydər Əliyevin müdrik uzaqgörənliyi, bilavasitə şəxsi təşəbbüsü ilə ölkə iqtisadiyyatının bütün sahələri ilə yanaşı kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində də mühüm və təxirəsalınmaz proqram və layihələr işlənib həyata keçirilməyə başladı.***



## *Prezident İlham Əliyevin rəhbərliyi ilə Kənd Təsərrüfatı Nazirliyinin yeni inzibati binasının açılışı bu qayğının göstəricisidir*

Öncə 18 oktyabr 1995-ci ildə "Aqrar islahatı haqqında", 1996-cı il oktyabr ayının 16-da isə "Torpaq islahatı haqqında" qanunlar imzalandı. Beləliklə, ölkədə kolxoz-sovxoz quruluşu ləğv edildi. Həmin tarixdən Azərbaycan kəndlisi torpaq mülkiyyətçisinə çevrilməklə, öz pay torpağının tam hüquqlu sahibi oldu. Eyni zamanda, şəxsi torpaq sahəsində özü üçün sərfəli və gəlirli məhsul əkib-becərməkdə tamamilə sərbəstlik qazandı. 1996-cı ildən beynəlxalq təşkilatlarla birgə həyata keçirilməsinə başlanan ərzaq proqramı kənd təsərrüfatının davamlı inkişafı və yoxsulluğun azaldılması ilə birgə ərzaq təhlükəsizliyinin uzunmüddətli təkmilləşdirilməsinə yönəldi. Bunun ardınca qanunvericilik sahəsində atılan yeni addımlar ərzaq təhlükəsizliyinin təminatı istiqamətində növbəti tədbirlərdən oldu. 2001-ci ildə isə ulu öndər Heydər Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi göstərilən sahə üzrə yeni nailiyyətlərin əldə olunmasına mühüm töhfə verdi. Məhz həmin proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmağa başladı. Bu Proqram çərçivəsində görülmüş işlər respublikamızda kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalını əhəmiyyətli dərəcədə artırdı. Təməli ulu öndər tərəfindən qoyulan bu siyasət onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

### 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcminin 3,4 faiz artıb və bu artım dinamikası 2023-cü ilin ilk dörd ayında da qorunub saxlanılıb

Bu gün Prezident İlham Əliyev rəhbərliyi ilə Kənd Təsərrüfatı Nazirliyinin yeni inzibati binasının açılışı bir daha ölkəmizdə kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsini və aqrar sahənin dinamik inkişafının uğurlu göstəricisidir. Məhz dövlətin kənd təsərrüfatının inkişafına göstərdiyi qayğının nəticəsidir ki, 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,4 faiz artıb. Artım dinamikası 2023-cü ilin ilk dörd ayında da qorunub saxlanılıb. Həmin müddətdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artım qeydə alınıb.Qeyd edək ki, bu gün hər bir vətəndaşın mənafeyi əsas tutulmaqla gerçəkləşdirilən aqrar islahatlar ölkə iqtisadiyyatında bazar münasibətlərinin qurulmasına, torpaq və əmlakın səmərəli istifadə edilməsinə, aqrar bölmənin sahə strukturunun təkmilləşdirilməsinə, sahibkarlığın formalaşması və inkişafına yönəlmişdir. Və bu kursu keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin çevik və işlək mexanizmlər əsasında gerçəkləşdirdiyi islahatlar nəticəsində respublikada aqrar-sənaye kompleksini inkişaf etdirmək, ərzaq təminatını yaxşılaşdırmaq üçün, ilk növbədə, qanunvericilik bazası möhkəmləndirilmiş, fermerlərə yanacağın, motor yağının və gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi təmin edilmiş, texniki təminatın yaxşılaşdırılması üçün "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın və gübrələrin verilməsinə başlanılmışdır. Bütün bunların nəticəsidir ki, indi kənd təsərrüfatı məhsulları istehsalında özəl bölmənin xüsusi çəkisi 99,7 faizə çatmışdır. Belə ki, Prezident İlham Əliyevin «Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında» imzaladığı Fərmanı dövlətin aqrar sahəyə göstərdiyi diqqət və qayğısının göstəricisidir.Dövlət başçımızın imzaladığı Fərmanda deyilir: «Ötən dövrdə Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf edərək, qeyri-neft iqtisadiyyatının mühüm sahələrindən birinə çevrilmişdir. Aqrar sektorda həyata keçirilən islahatlar və yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bu çərçivədə elektronlaşmanın tətbiqi, dövlət xidmətlərinin optimallaşdırılması, eləcə də səmərəli idarəetmə sisteminin qurulması aqrar sahədə keyfiyyət dəyişikliyini şərtləndirmiş və emal sənayesinin güclənməsi üçün əlverişli imkanlar yaratmışdır.Ölkədə aqrar emal sənayesinin dayanıqlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Bunu nəzərə alaraq, kənd təsərrüfatının yüksəlişinə dəstək mexanizmi məqsədyönlü şəkildə davamlı olaraq təkmilləşdirilməlidir".

### "Biz gərək ərzaq təhlükəsizliyinə düşünülmüş şəkildə yanaşaq"

Sözsüz ki, etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlılığın əsas şərtidir. Dövlət başçısı bütün çıxışlarında ərzaq təhlükəsizliyinin prioritet olduğunu bildirir və bu sahənin daima diqqət mərkəzində olduğunu vurğulayır. Belə ki, Prezident İlham Əliyevin sədrliyi ilə rayonlarda respublika müşavirələrində də bildirmişdir ki, ərzaq təhlükəsizliyi prioritet məsələlərdəndir və bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir: «Ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli addımlar atılır və bu məsələ ilə bağlı göstəriş verilib. Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq-qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq, eyni zamanda, bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir. İxrac bazarlarına çıxarıla biləcək məhsullara da diqqət yetirilməlidir».

### İşğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı

Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində min hektarlarla əkinə yararlı torpaq sahələri yararsız hala düşmüşdür. Torpaqların uzun müddət əkilməməsi, becərilməsi onun korlanmasına səbəb olmuşdur ki, bu da gələcəkdə həmin torpaqlardan yüksək məhsul əldə etməyə zəmanət vermir. İşğal nəticəsində hidrotexniki qurğuların, kollektor-drenaj şəbəkələrinin, kanalların, su hövzələrinin dağıdılması küllü miqdarda vəsaitlə ölçülür və əgər torpaqlarımız işğal altında olmasaydı bu gün aqrar sahə daha sürətlə inkişaf etdirilər və iqtisadiyyatımızın ən qabaqcıl sahəsinə çevrilə bilərdi. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, işğal altında olan kənd təsərrüfatına yararlı 600 min hektara yaxın torpaq sahəsinin, 231,056 əkin, 352 min hektara yaxın örüş - otlaq və biçənək sahəsinin illər boyu istifadə edilməməsi əkilib- becərilməməsi, korlanması qəbuledilməzdir və inkar olunmazdır ki, həmin sahələrdən min tonlarla taxıl, pambıq, kartof, üzüm, tütün, tərəvəz götürmək mümkün idi. Təəssüflər olsun ki, erməni təcavüzkarlarının işğalı nəticəsində əhalimiz öz torpaqlarını əkib becərməkdən məhrum olmuş və bu dövrlərdə yüz min tonlarla kənd təsərrüfatı məhsulu itirilmişdir.Lakin bütün bunlara baxmayaraq, 44 günlük Vətən müharibəsində tarixi qələbəmiz ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi üçün geniş imkanlar açmışdır. İndi ən vacib vəzifə bu imkanlardan maksimum bəhrələnmək, doğma Vətənimizi daha güclü və qüdrətli etməkdir.Prezident İlham Əliyev çıxışlarında, həmçinin azad edilmiş torpaqlarda vaxt itirmədən əkin işlərinə başlanıldığını da bildirərək demişdir: «Özəl şirkətlərə, fermerlərə təlimat vermişik və artıq orada əkin işləri başlanıb. Amma biz onu da bilməliyik ki, azad edilmiş torpaqlar sovet dövründə daha çox heyvandarlıq üçün istifadə olunurdu. Yəni orada - dağlıq ərazilərdə, xüsusilə Kəlbəcər, Laçın, Zəngilan rayonlarında bitkiçiliklə məşğul olmaq ənənəsi olmayıb. Orada üzümçülük, tütünçülük, heyvandarlıq, pambıqçılıq inkişaf etmişdi. Ermənilər işğal dövründə 100 min hektarda taxıl əkirdilər və təqribən 100 min tona yaxın buğda əldə edirdilər. Yəni bu, Ermənistan üçün böyük rəqəmdir. Amma bizim üçün bu, böyük rəqəm deyil. Əgər azad edilmiş mövcud torpaqlarda taxılçılıq üçün yararlı olan və məqbul sayılan yerlərdə əkin aparılsa, indiki məhsuldarlıqla təqribən 200 min tona yaxın buğda götürmək mümkündür. Yəni bu da reallıqdır. Yəni bu, bizim kəsirimizi, 1,3 milyonluq kəsirimizi örtmür. Onu da bilməliyik ki, əhali artır, ildən-ilə tələbat artır, pandemiyaya görə ölkəmizə xarici vətəndaşların gəlişində azalma olub».

### Azərbaycanda "ağıllı kənd" və "ağıllı şəhər"lərin qurulması Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşır

Bu gün Azərbaycanda "ağıllı kənd" və "ağıllı şəhər"lərin qurulması Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşır. Bu layihələr ölkəmizin ən modern, kreativ ideyalara nə qədər açıq olduğunu bir daha bariz şəkildə nümayiş etdirir. Azərbaycan hökuməti ilk "ağıllı kənd" layihəsini işğaldan azad olunmuş Zəngilan rayonunun Üçüncü Ağalı kəndində həyata keçirməyi planlaşdırır. Həmin layihənin icrası əsasən beş komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı" kənd təsərrüfatı və alternativ enerji sahələridir. Yeri gəlmişkən, inşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq. Bu, gözəl və bənzərsiz Qarabağımızın ekologiyasının qorunması, onun turizm imkanlarının daha da genişləndirilməsi üçün də vacib amildir. Zərrə qədər şübhə etmirik ki, "ağıllı kənd" texnologiyalarının tətbiqi həmin ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişafına şərait yaradacaq və Qarabağ regionunun həm də texnoloji innovasiya-startap mərkəzi kimi cəlbediciliyini artıracaq.Bəli, Azərbaycan kəndini qarşıdakı illərdə parlaq gələcək gözləyir. Bu gün işğaldan azad edilmiş ərazilərdə aqrar inkişafın yeni, Azərbaycan modeli qurulur. Bu model tezliklə ölkəmizin digər regionlarında da tətbiq olunacaq.Bir sözlə, Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi sərəncamlar və görülən işlər əldə olunan nailiyyətləri sübut edir. Və bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə, digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sektorunda da regionun, eləcə də, Avropanın lider dövlətinə çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**

TƏHLİL

# Gənclər təşkilatlarının yay fəsli üçün hansı planları var?

Sorğu



***Bildiyimiz kimi, hər yay bir çox gənclər təşkilatları gəncləri düşünərək onlar üçün maraqlı düşərgələr və müxtəlif planlar təşkil edir. Bütün bunlar gənclərin inkişafı ilə yanaşı onların asudə vaxtını daha səmərəli keçirməsi üçün müsbət şərait yaradır. SİA mövzu ilə bağlı təşkilat sədrləri və müavinlərinin fikirlərini öyrənib.***



**“İRƏLİ” İctimai Birliyinin sədri Şahin Rəhmanlı:** ”İRƏLİ üçün yay fəsli xüsusi önəm daşıyır. Əsas səbəb ondadır ki, əsas auditoriyamız məhz gənclərdən ibarətdir. Həm havanın isti olması, həm də gənclərin asudə vaxtının çoxluğu bizi daha çox düşərgə tipli layihələri icra etməyə istiqamətləndirir.

Hər il olduğu kimi bu ildə ənənələrimizə sadiq qalaraq bir çox düşərgə həyata keçirməyi hədəfləyirik. Bu layihələr sırasında indiyədək gənclər arasında olduqca sevilən ”Marş İrəli”, ”Gənclər Kuboku” və ”Gənclər Davamlı İnkişaf üçün” layihələrinin növbəti mövsümü, habelə gənclərin hərtərəfli inkişafı, regionlarda aktiv vətəndaşlıq, icma quruculuğu, gənc təlimçilərin formalaşdırılması, informasiya texnologiyaları istiqamətləri üzrə ölkəmizin müxtəlif bölgələrində fəaliyyətlərin təşkili nəzərdə tutulur. 2023-cü ilin ”Heydər Əliyev İli” olmasını nəzərə alaraq, paytaxt və bölgələrimizdə Ulu Öndər irsinin gənclərə aşılanması sahəsində də tədbirlərimiz həyata keçiriləcək.

Bu kimi layihələrin bizim üçün üstün tərəflərindən biri də gənclərimizlə birgə vaxt keçirərkən onları daha yaxından tanıyır, onları maraqlandıran mövzu və problemləri öyrənə bilirik. Bu da növbəti fəaliyyətlərin təşkili üçün xasusi əhəmiyyət daşıyır”.

**NAYORA-nın sədri Azər Əliyev:** ”Danılmaz faktdır ki, dövlətin, həmçinin gənclər siyasətinin yaratdığı geniş imkanlar sayəsində gənclər cəmiyyətimizin avanqard qüvvəsinə çevrilirlər. Yay düşərgələri gənclərin şəxsi, sosial inkişafına və rifahına böyük təsir göstərərək onların şüurunda xüsusi yer tutur. Bu düşərgələrin əsas üstünlükləri şəxsi inkişaf və sosial qarşılıqlı əlaqə imkanıdır ki, gənclər təşkilatları bunun fərqində olaraq yay ayları ərzində düşərgələr vasitəsilə minlərlə gənci öz ətraflarında toplayır.

NAYORA olaraq biz düşərgələr mövsümünü Şəki şəhərində keçirdiyimiz Gənclər Təşkilatlarının Strateji Planlaşdırma düşərgəsi ilə açıq elan etdik. ”Heydər Əliyev İli” çərçivəsində AR Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçirilən və 100-ə yaxın gənclər təşkilatının rəhbər və nümayəndəsinin iştirak etdiyi layihənin əsas məqsədi gənclər



təşkilatlarının birgə fəaliyyət strategiyalarının müzakirə edilməsi, aidiyyəti istiqamətdə görüş, müzakirə, vörkşopların keçirilməsi və fəaliyyət strategiyası ilə bağlı birgə sənədin hazırlanmasından ibarət idi. Ümumilikdə 5 gün davam edən düşərgə komanda işləri, uzun müddətli əməkdaşlıqlar və dəyərli təcrübələrlə yadda qaldı.

Yay düşərgələri deyəndə hər kəsin ağlına ilk növbədə əyləncə və istirahət gəlsədə əslində düşərgələr daha çox yeni bilik və bacarıqların əldə olunması, təcrübə mübadiləsi, şəbəkələşməni özündə cəmləşdirir.

Qeyd edim ki, iyun ayı ərzində AR Gənclər Fondunun dəstəyi ilə həyata keçirməyi planlaşdırdığımız daha bir düşərgə Gənclərlə iş üzrə menecerlərin inkişaf proqramı çərçivəsində təşkilatların Baş katibləri və idarəedici şəxsləri üçün olan layihədir. Əslində bu proqram NAYORA üçün ənənə halını alıb deyə bilərəm, çünki 2022-ci ildən etibarən proqrama start vermişik. Düşərgələrə aldığımız geri dönüşlər çox məhsuldar və öyrədici oldu ki, biz bu il də davam etmək qərarına gəldik. Düşərgə keçən il 35 nəfərin iştirakı ilə baş tutsada bu il sayı 50 etməyi hədəfləmişik. Proqramın əsas məqsədi iştirakçıların idarəetmə bacarıqlarının artırılması, gənclər təşkilatları arasında əlaqələrin gücləndirilməsi, onların birgə fəaliyyətlərə təşviq edilməsi, təcrübə mübadilələrinin həyata keçirilməsi, seminar və sessiyalar vasitəsilə yeni biliklərin əldə edilməsindən ibarətdir.

Düşərgələrimizdə yerli kontekslə yanaşı beynəlxalq təmsilçilik istiqamətində də bir sıra fəaliyyətlər nəzərdə tutmuşuq. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirəcəyimiz ”Gənclər Təşkilatları: dayanıqlı beynəlxalq əlaqələr və effektiv təmsilçilik” layihəsi belə layihələrdən biridir. Layihənin ümumilikdə 50 təşkilat nümayəndəsinin iştirakı ilə 3 modulda həyata keçirilməsi planlaşdırılıb. Gənclər təşkilatlarının nümayəndələrinin beynəlxalq tərəfdaşlarla əlaqə və əməkdaşlıq imkanlarının artırlması, beynəlxalq platformalı gənclər təşkilatlarının şəbəkələşməsinin təmin edilməsi, beynəlxalq inteqrasiya, təmsilçiliklə bağlı bilik və təcrübələrin təkmilləşdirilməsi layihənin əsas məqsədləri sırasına daxildir.

Həmçinin Danimarka Milli Şurası ilə həyata keçirəcəyimiz təşkilat nümayəndələri üçün beynəlxalq layihələrin yazılması təlimləri də bu qəbilədəndir. 40 nəfərədək iştirakçı ilə baş tutacaq layihənin məqsədi xarici donorlarla layihə təkliflərinin effektiv formada yazılması və idarə edilməsindən ibarətdir.

Son olaraq isə qeyd etmək istədiyim layihələrdən biri ”Azərbaycanın regionlarında gənc təlimçilərin, fasilitatorların və multiplayerlərin bacarıqlarının inkişafı proqramı”dır. İlkin olaraq proqramın təlimlərinin hər birində 40 gənc təlimçi olmaqla Lənkəran və gənclər paytaxtı Mingəçevirdə keçirilməsini planlaşdırmışıq. Layihənin əsas məqsədi Azərbaycanın regionlarında qeyri-formal təhsilin cəlbediciliyini və keyfiyyətini artırmaqdan ibarətdir.

Yekun olaraq qeyd etmək istəyirəm ki, yay düşərgələri gənclərin inkişafında mühim rol oynayır, onlara şəxsi inkişaf, sosial qarşılıqlı əlaqə, təhsil də daxil olmaqla geniş imkanlar təklif edir. Düşərgələrin mühiti gənc fərdləri potensiallarını kəşf etməyə və hərtərəfli fərdlər olmağa təşviq edir, həmçinin onlara gələcəyə hazırlayan yaddaqalan və dəyişdirici təcrübə təqdim edir”.

**Azərbaycanlı Tələbələr və Məzunlar Platforması (ASAP) İcraçı direktoru Rafael Hacıbəyli:** “Bu il yay ayları ərzində ASAP tərəfindən müxtəlif layihələr keçiriləcək. İlkin olaraq, bir neçə gün sonra Fransanın Strasburq şəhərində keçiriləcək Ümummilli Liderin 100 illik yubileyinə həsr olunmuş



”Heydər Əliyev İli” çərçivəsində ”Heydər Əliyev: Azərbaycan-Avropa Şurası münasibətlərinə tarixi baxış” tədbirini vurğulamaq istərdim. Həmçinin, xaricdə təhsil alan və təhsilini başa vurmuş gənclərimizin iş və karyera imkanlarının artırılması məqsədilə Karyera Akademiyası layihəsi təşkil olunacaq. Karyera Akademiyası gəncləri şirkətlər tərəfindən müxtəlif təlim və biliklər ilə təmin edən platforma rolunu oynacaq. Gənclərə karyera imkanları vermək məqsədi ilə gənclər təşkilatlarının və qabaqcıl şirkətlərlə əməkdaşlıq çərçivəsində onların birgə şəbəkələşməsi baş tutacaq. Bundan başqa ”Yay Dayanıqlıq Düşərgəsi” -nin keçirilməsi nəzərdə tutulub. Eyni zamanda xaricdə təhsil alan və məzun olan gənlərimizin iştirakı ilə keçirilən ”Ənənə Xeyriyyə” layihəsi çərçivəsində müxtəlif istiqamətlərdə xeyriyyə tədbirləri baş tutacaq”.



**“Davam” Gənclər Hərəkatının PR və Media məsələləri üzrə katibi Lumu İsrəfilli:** ”Yay mövsümü gənclər üçün istirahət mövsümü olduğuna görə onlar bu müddət ərzində gənclər təşkilatlarının fəaliyyətində daha yaxından iştirak edə bilirlər. Buna görə də gənclərin asudə vaxtlarını səmərəli keçirməsi məqsədilə ”Davam” Gənclər Hərəkatı tərəfindən qarşıdakı 3 ayı əhatə edən fəaliyyət planı hazırlanıb. Hərəkat olaraq ”Kəşf et və yetişdir” texnologiyasına uyğun 3 yay düşərgəmiz baş tutacaq. Bunlardan biri olan ”Gənclər üçün Rəqəmsal Bacarıqlar Düşərgəsi” 18-23 iyun tarixlərində Gənclər Paytaxtı Mingəçevir şəhərində keçiriləcək. Layihə ilə bağlı artıq qeydiyyat başlayıb və qoşulmaq istəyən gənclərimiz qeydiyyat linki (https://shorturl.at/chkBM) vasitəsilə müraciət edə bilərlər.

Növbəti 2 ay ərzində regionlarda yaşayan və indiyədək ümumiyyətlə düşərgələrdə iştirak etməyən gənclərimizin iştirakı ilə ”Region Gəncləri üçün Yay Məktəbi” və karyera qurmağı hədəfləyən gənclər üçün ”BACAR! - karyera quruculuğu məktəbi”nin təşkil olunması gözlənilir.

Bunlarla yanaşı, ”Davam” Gənclər Hərəkatı tərəfindən yay boyunca mütəmadi olaraq gənclərin maraq dairəsində olan və şəxsi inkişafına töhfə verən müxtəlif mövzularda təlim, görüş, layihə, idman və intellektual yarışlar, yaradıcı gənclərlə iş və digər istiqamətlərdə tədbirlərin keçirilməsi planlaşdırılır”.



**“Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin İctimaiyyətlə Əlaqələr üzrə meneceri Surayə Rzayeva:** ”Yay ayları, gənclər üçün maraqlı layihələrdə iştirak etmək üçün mükəmməl bir zamandır. ”Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi tərəfindən də yay aylarında gənclərin asudə vaxtını dəyərləndirmək və ”Əylənərək öyrənmək” konsepsiyası ilə müxtəlif fəaliyyətlər təşkil olunur. Burada düşərgələri, kvest yarışlarını, debat yay məktəblərini, natiqlik üzrə master-klassları, gənclər üçün sahibkarlıq proqramını, gənclər evlərində debat fəaliyyətlərini xüsusi qeyd edə bilərik.

Bu yay üçün ilk düşərgələrimizdən biri də elə 8-13 iyunda Gənclər paytaxtı Mingeçevirdə keçiriləcək ”Gənclərin Sosial Şəbəkə Akademiya”sıdır. Layihə çərçivəsində Gənclər və İdman Nazirliyinin dəstəyi və DVC təşkilatçılığı ilə Akademiyada gənclər sosial şəbəkələrdən düzgün istifadə, trendlərə uyğun paylaşımlar, ”Sosial şəbəkələrdən necə istifadə edə bilərik?” sualını cavablayacaq və potensiallarını kəşf edəcəklər. Həmçinin, bu gənclərdən ibarət yaradılacaq bir qrup daha sonra informasiya müharibəsində fəal iştiraka cəlb olunacaqdır.

Həmçinin, yay ərzində gənclər Youth Inc. Sahibkarlıq Proqramının yeni layihəsi olan ”Yeni nəsil 3.0” layihəsinə, ucqar kəndlər və işğaldan azad olunmuş bölgələrdə yeni salınan kəndlərin şagirdləri üçün ”Təhsil Avtobusu – Gələcəyə doğru” layihəsi, məktəbli debatları, karyera, debat, natiqlik, sahibkarlıq mövzulu düşərgələrin və beynəlxalq debat turnirlərinin iştirakçısı olmaq imkanı əldə edəcəklər.

Azərbaycan gəncləri üçün yaradılan imkanlar və gənclər təşkilatlarının bu istiqamətdə fəaliyyəti sağlam, savadlı, bacarıqlı, vətənpərvər gənc nəslin yetişməsinə və inkişafına xüsusi töhfə verir. İnanırıq ki, gənclərimiz bu imkanlardan istifadə edərək öz gələcəyini ən yaxşı şəkildə qurur”.

***Ayşən Vəli***

# Bayden niyə yıxılır? – MARAQLI SUAL



***ABŞ-ın indiki prezidenti Cozef Bayden hakimiyyətə gəldiyi gündən hər kəsin diqqətini üzərinə çəkə bilib. Sələfi Donald Trampdan hakimiyyəti təhvil alması da Amerika tarixində misli görünməmiş hadisələrin yaşanmasına səbəb oldu. Digər bir maraqlı sual da insanları cavab axtarmağa vadar edir, əcəba indiki dünya üçün çətin və ABŞ üçün kritik bir dönəmdə ahıl və özünü idarə etməkdə çətinlik çəkən birini hakimiyyətin başına gətirmək kimə lazımdır? Amma bu oldu, həm də Trampın iddia etdiyi kimi saxta yolla hakimiyyətə gəlməklə hər kəsi, amerikalıların özünü də təəccübləndirdi.***

Ağ Evin indiki sahibinin bəzi hərəkətləri də insanları şaşırdır. Baydenin süqutundan sonra isə hələ çox mətləblərin üzə çıxacağına inanırıq. ABŞ prezidenti Baydenin növbəti biabırçılığı seçki yarışında bəlli olacaq. Hələ də "hava ilə güləşən" qoca Baydenin növbəti dönəmdə də hakimiyyətdə qalmaq, yəni seçki marafonuna yenidən qoşulmaq kimi iddiası da ara-sıra mətbuatda dərc olunur.

Baydenin tribunada sanki kiminləsə söhbət etməsi, hətta ona "cənab prezident" deyə müraciət edən zaman yan-yörəyə boylanması, "prezidenti" axtarması da lətifəyə çevrilib. Hətta jurnalistlərin buna artıq öyrəşdiklərini də deyə bilərik. Çünki Baydenin qeyri-adi hərəkətləri indi heç kimdə təccüb doğurmur. ABŞ Prezidentinin tez-tez yıxılması da yeni xəbər deyil. Baydenin Vaşinqtonda helikopterdən enərkən başını qapıya çırpması da onun boyunun uzun olmasına dəlalət etməyən səbəblərdəndir.








Qocalıq Co Baydenlə qəddar zarafat edir. Bir neçə gün əvvəl ABŞ prezidenti Kolorado ştatında səfərdə olarkən ABŞ Hərbi Hava Qüvvələri Akademiyasının məzunlarına diplomların təqdimat mərasiminə gəlib. Çıxışının sonunda siyasətçi səhnədən düşmək üçün sola istiqamətlənib, lakin teleprompteri yerində saxlayan qum torbasının üzərinə yıxılıb. Üç nəfər - cangüdənlər və akademiyanın bir nümayəndəsi onun yanına qaçıblar. Onların köməyi ilə Bayden ayağa qalxıb və ona "badalaq" vuran torbanı göstərib, sonra isə baş barmağını yuxarı qaldıraraq tamaşaçılara gülümsəyib. Ağ Evin kommunikasiyalar üzrə direktoru Ben Labolt Baydenin zərər görmədiyini bildirib. "Onun vəziyyəti yaxşıdır. O, əl sıxmaq istəyəndə səhnədə qum torbası var idi", - Labolt tvitində yazıb.

Bayden Amerika tarixində ən yaşlı prezidentdir. Hazırda onun 80 yaşı var. Onun rəqibi Donald Trampın iyunda 77 yaşı tamam olacaq. Eks-prezident Baydenin yıxılmasına dərhal reaksiya verib. "O, doğrudanmı yıxıldı? Ümid edirəm ki, zərər görmədi. Belə vaxtlarda (yəni qocalığında) diqqətli olmaq lazımdır", - Tramp bildirib. Respublikaçılar Partiyasından prezidentliyə digər namizəd, Florida ştatının qubernatoru Ron DeSantis Baydeni dəstəkləyib, lakin bu dəstəyi o kampaniya aparırmış kimi təqdim edib.

Qubernator Ron DeSantis deyib: "Biz Co Baydenin aldığı hər hansı xəsarətdən tezliklə sağalmasını ümid edirik və Amerika Birləşmiş Ştatlarının da sağalması üçün dua edirik".

İndi hər kəsi bir məsələ narahat edir. Əgər payızda Bayden ikinci müddətə namizədliyini irəli sürsə, onu ikinci müddətə dəstəkləyən olacaqmı? İkinci prezidentliyinin sonunda onun 86 yaşı tamam olacaq. Bu, 2029-cu ilin əvvəlinə təsadüf edəcək.

Qərb mediası bu hadisəyə fərqli reaksiya verib:

### "New York Times"

"Respublikaçılar prezidentin büdrəməsini onun vəzifəyə yararsız olduğuna dair sübut kimi qəbul edirlər və bəziləri Baydenin süqutunu qeyd etməyə tələsirlər. Lakin Baydenə yaxın insanlar, o cümlədən bir çox işçiləri onun yaxşı formada və enerjili olduğunu israr edirlər. Hər gün idmanla məşğul olduğunu və artıq çəkisinin olmadığını deyirlər. Vaşinqtonda Bayden başını prezident helikopterinin qapısının kənarına vurana qədər bu, belə görünürdü. Ağ Evin qarşısında jurnalistlərlə görüşündə "qum torbası" faciəsi ilə üzləşməsi isə köməkçilərini də pis vəziyyətdə qoyub ".

### "Washington Post"

"Açılış nitqini söyləyəndən və 920 kursantın sonuncusu ilə əl sıxdıqdan sonra Bayden oturacağına qayıtmaq üçün sola doğru hərəkət etməyə başladı, qara qum torbasının üstünə dizləri üstə yıxıldı. Bir neçə saat əvvəl Bayden mərasimdə açılış nitqi ilə çıxış etdi. 80 yaşlı prezident iki saatdan çox səhnədə dayanıb, adları oxunan yeni məzunları salamlayıb. Bu zaman Kolorado ştatının El Paso qraflığında havanın temperaturu 15 dərəcə olub.

### "Politico"

"Prezidentə yaxın insanların çox qorxduğu yıxılma anı Ağ Evin reaksiya verə biləcəyindən daha sürətli videoya çəkildi və internetdə yayıldı. Videonun yayılmasından bir neçə dəqiqə sonra Ağ Evin ictimaiyyətlə əlaqələr üzrə direktoru baş verənləri azaltmaq üçün Twitter-ə müraciət etdi. Baydenin uzun müddət yatmadığını bu hadisənin yaşanmasına səbəb kimi göstərdilər. 80 yaşlı prezidentin - indiyə qədər vəzifədə olan ən yaşlı adamın ikinci müddətə namizəd olduğu bağışlanmazdır. Nümayəndələr Palatası tərəfindən gözləniləndən daha çox səslə qəbul edilən borc tavanı razılaşmasının əldə edildiyi həftə indi öz zəifliyini göstərdi. Baydenin yaşı ilə bağlı sualları həll etmək mümkün deyil. Cümə axşamı günü ortaya çıxan videolar Ağ Evə Demokratlar Partiyası daxilində bu gizli narahatlıqları aradan qaldırmağa yox, əksinə artırmağa kömək etdi.

### Kimdir günahkar?

Qorbaçov və Yeltsinin keçmiş protokol rəhbəri Aleksandr Qamov bu barədə maraqlı açıqlama verib. O bildirib ki, Rusiya prezidentlərinin heç biri indiyə qədər büdrəməyib, yıxılmayıb: "Baydenin sərgüzəştləri haqqında hər hansı mühakimə yürütmək üçün bu şəxsin xəstəlik tarixçəsini bilmək lazımdır. Heç kim sənə də, mənə də deməsin ki, xəstədir, qocadır. İkinci, dövlət başçısının səfərinin hazırlanması variantlarını nəzərdən keçirəndə onun hansı yerdən gedəcəyini bilirsən. Bundan əlavə - qutular və ya bəzi bu kimi şeylərə rast gəlmək artıq protokol deyil. Bu təhlükəsizlik işçilərinin göz qoyacağı məsələdir. Məndə belə təəssürat yaranıb ki, Baydenin təhlükəsizliklə bağlı problemi var. Nərdivanla enəndə onu tuta bilmirlər, çətirlə "küləklə döyüşəndə" kömək edən yoxdur. Bəzi oyunlar aydın deyil. Protokol xidməti isə axmaqdır. Bayden çətiri, çantasını özü daşıyır".

***V.VƏLİYEV***

***P.S.** Məqalədə bəzi qeydlər xarici mətbuatdan götürülüb.*

# Turistlərə qucaq açan tarixi və səfalı Qubamız






*Təkrarsız gözəlliyi ilə insanları heyran edən Odlar diyarımızın hər daşında, hər qayasında bir tarix yaşayır. Xalqımızın çoxəsrlik tarixi. Bu tarixin hər sətri əsrlərdən olan soraqları bizlərə verərək min illərin yaşatılarını daşlaşmış yaddaşlarda yenidən yaşadır. Nələrə sahib deyil, bu torpaq. Vüqarından, mücadiləsindən tutmuş zəngin tarixi, ədəbiyyatı, incəsənəti və bu sənəti yaradan və yaşadan sənətkarları, iqlimi, florası, faunası daha nələri, nələri var. Hər bir gözəllik bu torpaqda sərgilənir.*

Azərbaycanın misilsiz gözəlliklər diyarı, zəngin təbiət muzeyi kimi tanınması da əlbəttə ki, ilin bütün fəsillərində zirvəsinin qarla örtülü, zəngin və nadir ovalıqları, təkrarolunmaz gözəlliyə malik gölləri, çayları, bulaqları olması ilə səciyyəvidir. Deyirlər ki, dünyanın möcüzəli məkanının yeraltısı tükənməz xəzinə, yerüstü isə canlı muzeydir. Yer üzündəki 11 iqlim növünün 9-u əgər Azərbaycandadırsa, demək bu məkanın dəyəri heç nə ilə ölçüyə gələ bilməz. Əfsanəvi İpək Yolu üzərində yerləşən Azərbaycan bütün zamanlarda hər bir qonağa açıq ölkə olub. Gözəl mənzərələri ilə tanınan Odlar yurdu qədim və müasirliyi ilə seçilən bir məkan kimi yer üzündə tanınır. Ölkəmizin hər bir diyarı əsrarəngiz gözəlliyi ilə seçirir. Hər bir bölgənin özünəməxsusluğu, cazibəliyi var. Elə Böyük Qafqazın Şahdağının şimal-şərq yamaclarında, Qudyalçayın sahilində yerləşən Quba kimi. Əbəs deyil ki, bu rayon turistlərin ən sevimli yerlərindən birinə çevrilib. Mətbəxi, ənənəvi yaşayış tərzinə sadiqliyi, ailə dəyərləri, koloriti və əsl Şərq mühiti ilə fərqlənən Quba turizm potensialı ilə fərqli və zəngindir. Qubaya gələn turistlər rayonun tarix və mədəniyyət abidələrinə biganə qala bilmirlər. Əlbəttə ki, son illər ölkəmizin hər bir yerində olduğu kimi, Quba rayonunda da yaradılmış infrastruktur turizmin inkişafına təkan vermişdir. Kənd yollarının yenidən qurulması turizmin inkişafı deməkdir. Rustov-Xanəgah-Girdəh, Rustov-Növdün-Şuduq, Rustov-Məcgə xacə, Rustov-Baxçalı-Yekdar avtomobil yolunun istifadəyə verilməsi yeni turizm istiqamətinin açılmasına səbəb olmuşdur. Əlbəttə ki, Qubaya gələn qonaqlar ilk növbədə dağların qoynundakı Xınalıq kəndinə Allahın möcüzəsi kimi qələmə verilən bu diyara getməyi arzulayırlar. Axı bu unikal yaşayış məskəninin dünyada analoqu yoxdur. Xınalığı açıq səma altında muzeyə də bənzədirlər. Rayon mərkəzindən 58 kilometr məsafədə, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən bu kənd - özünəməxsusluğu ilə marağa səbəb olur. Hündürlüyü 75-80 metrə çatan əzəmətli "Afurca şəlaləsi"nə də üz tutanların sayı çoxdur. Şəlaləni görmək istəyənlər məşhur "Təngə dərəsi"ndən də keçməli olurlar. Xınalıq kəndində Qudyalçay üzərindəki Tağlı körpü, eləcə də Avropanın ən uca dağ kəndi sayılan IX əsrə aid Atəşpərəstlər məbədi mühafizə olunur.

## GÜNÜMÜZƏ QƏDƏR DƏYİŞMƏZ OLARAQ QALAN XINALIQ DİLİ

Xınalıq qoruq elan edildiyi üçün burada yeni binaların tikintisi qadağandır. Bu gün Xınalığa çoxlu turist gəlir. Əcnəbiləri daha çox maraqlandıran Xınalıq dilidir. Yerli adət və ənənələri qoruyan Xınalıq camaatının danışdığı dil heç bir dil ailəsinə mənsub deyil.

Hər il yenidən bura gələn almanlar, hollandlar, fransızlar, amerikalılar Xınalıq dilini öyrənməyə cəhd edirlər. Rəvayətlərə görə xınalıqlılar Nuh peyğəmbərin danışdığı dildə danışırlar. Xınalıqlılar özləri də bunu inkar etmir. Bir neçə alim-dilşünas Xınalıq dilinin tədqiqi ilə məşğul olmuş, Xınalıq dili haqqında bir neçə elmi kitab nəşr olunub. Xınalıq dilinin hansı dil qrupuna aid edilməsi barəsində illər boyu mübahisələr gedib. Mənbələrdə qeyd olunduğu kimi, əslində Xınalıq dili haqqında olan dastan və ya miflər bizə heç də yanlış informasiya vermir. Bir neçə alim-dilşünas Xınalıq dilinin tədqiqi ilə məşğul olmuşdur. Xınalıq dili haqqında bir neçə elmi kitab nəşr olunub. Xınalıq dilinin hansı dil qrupuna aid edilməsi barəsində illər boyu mübahisələr gedib. Xınalıq dilinin ən təqdirəlayiq tədqiqatçısı Yunus Deşeriyev sayılır. Belə ki, o, 1950-54 illərinin yay aylarında Xınalıqda böyük tədqiqatlar keçirib və 1959-cu ildə "Xınalıq dilinin qrammatikası" kitabını dərc edib. Yunus Deşeriyevin yazdığına görə, eramızdan əvvəl 3-cü minillikdə Qafqazda tək qədim dil mövcud idi.

Sonradan dillər bölünməyə başlandı, amma xınalıq dili günümüzə qədər dəyişməz olaraq qaldı. Xınalıq dili mürəkkəb morfoloji struktura malikdir. 1972-ci ildə "Xınalıq dilinin qrammatikasının fraqmentləri" kitabı nəşr olunub.

## ZƏNGİN TƏBİƏT ABİDƏLƏRİ

Turistlərin Qubadakı təbiət abidələrinə də marağı böyükdür. Rayon ərazisində 60-dan çox təbiət abidəsi mövcuddur. "Xan bulağı", "Ağacda ev", "Atəşgah", "Cəfər dərəsi", "Minarə", "Xaşı istisuyu", "Sona bulağı" kimi təbiət abidələrinə maraq çoxdur. Memarlıq abidələrindən Ağbil türbələri, Alpan kəndində Subaba türbəsi, Birinci Nügədi kəndində məscid və minarə, Hacı Cəfər və Cümə məscidləri, Gümbəzli hamam vardır. Bundan başqa Rustov kəndində "Ələmu" adlı qala və tarixi məsciddə yerləşir. Bu abidələr sırasında XIX əsrə aid Səkinəxanım məscididir. XIX əsrə aid bu məscidin spesifik xüsusiyyəti qadın adı daşımasıdır. Məscid öz monumentallığı ilə insanları heyrətə gətirir. Doqquz günbəzli məscid binasının hündürlüyü 27 metrdir. O, qırmızı kərpicdən tikilib və tilli silindri xatırladır. Sovet dövründə burada anbar və tikiş sexi yerləşib. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra məscid bərpa edilib və yenidən dini ibadətgah kimi istifadəyə verilib.

## ŞİMAL-ŞƏRQİ AZƏRBAYCANDA ƏN QƏDİM DİNİ MƏRKƏZLƏRDƏN BİRİ – CÜMƏ MƏSCİDİ

Qubada zəngin memarlıq üslubuna malik olan ən qədim məscidlərdən biri olan Cümə məscidi 1802-ci ildə Qazi Nəsrullah əfəndinin oğlu Qazi İsmayıl əfəndinin maddi yardımı ilə tikilib. Binanın tikilisi 1792-ci ildə başlanmış və müəyyən fasilələrlə 10 ilə başa çatdırılıb. Bu məscid təkcə Qubada deyil, ölkənin bütün şimal-şərq bölgəsində ən qədim dini mərkəzlərdən biri olub. Bu məscid təkcə Qubada deyil, şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biri olmuşdur. Məscid və onun nəzdində olan mədrəsə 1924-cü ilədək fəaliyyət göstərmiş, qırmızı imperiya dövründə onun fəaliyyəti qadağan edilmişdir. 1933-cü ildə mədrəsə, minarə, sonralar isə digər tikililər dağıdılıb. Məscidin dağıdılacağını bilən rayon əhalisi, gecə ilə dəyirman daşlarını və çuvallarla buğdalarını gətirib məscidi dəyirmana çevirib ki, onu dağıdılmaqdan xilas etsinlər. Bir müddətdən sonra bura anbar kimi istifadə olunub. Daha sonra isə burada xalça muzeyi fəaliyyət göstərib. Azərbaycan müstəqillik yoluna qədəm qoyduqdan sonra məscid yenidən dindarların istifadəsinə verilib və dini qurum kimi ədliyyə nazirliyində qeydiyyatdan keçib.

## QUBADA AVANQARD VƏ MODERN MEMARLIQ ÜSLUBLARI

Azərbaycanın bütün bölgələri kimi, bu gün Quba da müasirləşib. Burada müasir istirahət mərkəzləri, otellər inşa olunub və bəziləri bərpa, təmir edilib. Qudyalçayın sahilində inşa olunmuş "Rixos Quba Azərbaycan" oteli maraqlı memarlıq üslubunda tikilibdir. Avanqard və modern memarlıq üslublarının sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunub. Turistlərin Heydər Əliyev Beynəlxalq Aeroportundan "Rixos Quba Azərbaycan" otelinə çatdırılması üçün özəl VİP servis və helikopter xidməti göstərilir. Dünya standartlarına cavab verən mərkəzlərdən biri Quba Olimpiya Kompleksidir ki, burada müasir səviyyəli idman zalları inşa edilib. Böyük futbol, mini futbol, basketbol, voleybol, tennis, üzgüçülük meydançaları da var. Kompleksdə qonaqlara Avropa standartlarına cavab verən şəkildə xidmət olunur. "Nazlı bulaq" istirahət mərkəzi, "Məst Dərgah" istirahət mərkəzi, "Bərpa SPA" Mərkəzi, "Oskar" oteli və digər mərkəzlər müasir standartlara cavab verir.









Ardı Səh. 12

# Turistlərə qucaq açan tarixi və səfalı Qubamız







Əvvəli-Səh-11

## ÇOXMİLLƏTLİ, AZSAYLI XALQLARIN YAŞADIĞI QƏDİM MƏKAN

Qubada həmçinin dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbə yerləşir. Qeyd edək ki, ümumiyyətlə, Quba çoxmillətli rayondur, burada 20-dən artıq azsaylı xalq yaşayır. Onların 79 faizini azərbaycanlılar, 9 faizini tatlar, 6 faizini ləzgilər, 1,8 faizini yəhudilər, 1,4 faizini türklər, 1,4 faizini xınalıqlılar və 1,2 faizini digər xalqların nümayəndələri təşkil edir. Qubadakı Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir. Bu fakt Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur.

Bu kəndin sakinləri əsasən ticarətlə məşğul olurlar. Kəndin əhalisi öz dili ilə ayrıca etnoqrafik qrup təşkil edir. Şəhərin kənarında, Qudyalçayın sağ sahilində yerləşən bu qəsəbənin yəhudi sakinləri özlərini ”cuqur” adlandırırlar. Onlara, həmçinin dağ yəhudiləri deyilir. Qəsəbədə 13 sinaqoq var, lakin indi onların ikisi fəaliyyət göstərir. Yəhudilərin köçürülməsi zamanı burada 360 ev, 1200-1500 sakin vardı. Bu gün isə Qırmızı Qəsəbədə təxminən 4-5 min yəhudi yaşayır.

Quba yəhudiləri bu əraziyə köçürülmələrinə görə Hüseynəli xana və Fətəli xana borcludurlar. Mənbələrdə qeyd olunur ki, yəhudilərin buraya köçü Nadir şahın hakimiyyəti dövründə (1736-1747) baş verib. Qubanın fəthindən sonra Nadir şahla birgə gələn yəhudilər Qələdüz və Küpçal kəndləri arasındakı ərazidə yerləşdirilib. Yəhudi ağsaqqalları icmanın təhlükəsizliyini təmin etmək xahişi ilə Hüseynəli xanın sarayına (xanın yay sarayı indi ”Günbəzli hamam” deyilən yerdə olub) gediblər. Xan onlara indiki Qırmızı Qəsəbənin yuxarı hissəsində yer verib. Yəhudiləri gecə talanları və qəfil hücumlardan qorumaq üçün 1765-ci ildə Fətəli xan onları bu gün yaşadıqları əraziyə köçürüb.

## TARİXİ VƏ ORİJİNAL ÇEŞNİLƏR ƏSASINDA TOXUNAN XALÇALAR DÜNYA MUZEYLƏRİNDƏ

Azərbaycanın şimal-şərqində yerləşən Quba xalça mərkəzi üç hissəyə-dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Dağlıq hissəyə – Qonaqkənd, Xaşı, Cimi, Afurca, Yerfi, Buduq, Qırız, Cek, Salmasöyüd kəndlərində mərkəzləşmiş məntəqələri aid etmək olar. Dağətəyi hissədə xalça istehsalı – Əmirxanlı, Əlixanlı, Xəlfələr, Pirəmsan, Bilici, Şahnəzərli, Pirəbədil, Zeyvə, Zöhrami, Sumaqobaq, Xırdagül-çiçi, Sırt-çiçi, Dərəçiçi məktəbləri, Ovalıq hissədə isə Şabran aran zonasında Çay Qaraqaşlı, Hacı Qaraqaşlı, Süsənli, Qaraqaşlı, Dəvəçi, Mollakamallı və s. kəndlərdə mərkəzləşib. Bu məktəbə həmçinin də Dərbənd ərazisində toxunan xalçalar da daxildir. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Bu məktəbin xalçalarında medalyonlu çeşni üslubu da geniş yayılmışdır. Quba xalçalarının ən parlaq kompozisiyaları ”Qədim-Minarə”, ”Qımıl”, ”Alpan”, ”Qollu-çiçi”, ”Pirəbədil”, ”Hacıqayıb”, ”Qırız”, ”Cek” və s.-dir. Bu zonada toxunan ”Çiçi”, ”Qımıl”,









”Cimi” kimi xalçaları dünyanın bir sıra muzeylərinin və şəxsi kolleksiyalarını bəzəyidir. Bildiyimiz kimi, bu gün ”Azərxalça” ASC-nin Quba filialı fəaliyyət göstərir. Burada 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışır. Burada 43 dəzgahda əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində hazırlanmış tarixi və orijinal çeşnilər əsasında xalçaların toxunmasına üstünlük verilir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında ”Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib.

## NİZAMİNİN ŞƏRƏFİNƏ SALINAN PARK

Deyilənə görə, Nizaminin şərəfinə adlandırılan Nizami parkını 1946-cı ildə alman əsirləri salıb. Parkın ərazisi yaşıllığa bürünüb, ağacların kölgəsində fəvvarələr şırıldayır. Parkda Azərbaycanın dahi şairi Nizami Gəncəvinin abidəsi ucaldılıb. Abidənin ətrafında xiyaban boyu Nizaminin əsərlərindən səhnələri əks etdirən barelyeflər qoyulub. Nizami adına parkda hamının diqqətini cəlb edən tikili Quba Şahmat Məktəbinin binasıdır. Beş il əvvəl inşa olunmuş binada şahmatçıların hazırlanması üçün hər cür şərait yaradılıb, yarış zalında eyni vaxtda 350-dək şahmatçı mübarizə apara bilər. Parkda turistləri tez-tez görmək olar. Xiyabandan pilləkənlə Qudyalçay üzərindəki qədim Tağlı körpüyə enmək mümkündür. Pilləkən boyu qızıl suyuna çəkilmiş müxtəlif heykəllər qoyulub. Bu piyada körpüsü xiyabanı dağ yəhudilərinin yaşadığı Qırmızı Qəsəbə ilə birləşdirir.

Hərbi tərcüməçi, diplomat, rus ordusunun zabiti olmuş ilk azərbaycanlı Abbasqulu ağa Bakıxanov bu məkanın yetirməsidir. Ensiklopedik biliklərə malik alim Quba qəzasının Amsar kəndində boya-başa çatıb. Beş tarixi-ədəbi əsərin, eləcə də ”Gülüstani-İrəm”-in müəllifidir. Müəllif 1841-ci ildə fars dilində yazdığı, 1843-cü ildə rus dilinə tərcümə etdiyi bu əsərdə Gülüstan sülh müqaviləsinə qədər Azərbaycan tarixini əks etdirib. Qubada, Ərdəbil küçəsi 93 ünvanında yerləşən XIX əsrə aid binada – vaxtilə Bakıxanovların yaşadıqları evdə A.Bakıxanov adına tarix-diyarşünaslıq muzeyi yaradılıb. Ümumi sahəsi 742 kvadratmetr olan muzeydə 10 mindən çox müxtəlif eksponat qorunur. Hər il muzeyə 3000-dən çox turist gəlir. Burada ”Muzeydə bahar” adlı aksiya, habelə ”Açıq qapı” günü keçirilir. Amsar kəndində isə A.Bakıxanovun ev-muzeyi yerləşir.

## QUBA SOYQIRIMI MEMORİAL KOMPLEKSİ

Son illər dünyada turistlərin üz tutduqları turizm məkanlarından biri də Quba Soyqırımı Memorial Kompleksidir. Ölkəmizdə xarici və yerli ziyarətçilərin ən çox üz tutduğu yerlərdən biri sayılır. Bu Kompleks həmçinin Azərbaycanın tarixi-mədəni irsinin təbliğ olunduğu, əhəmiyyətli ideoloji müəssilərdən biri hesab olunur. Məlumdur ki, əvvəllər Quba şəhərinin futbol meydançası kimi fəaliyyət göstərən ərazidə toplu məzarlıq aşkarlanmışdır. Bu ərazidə 2007-ci ildə inşaat işləri zamanı təsadüfən kütləvi insan qalıqları tapılmışdır. Ərazidə aşakar olunan quyu və arxlardan 2 mindən artıq insan kəllə və sümükləri üzə çıxmış, burada toplu məzarlıq aşkar edilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2009-cu ildə həmin ərazidə Soyqırımı Memorial Kompleksinin yaradılması qərara alınmışdır. Soyqırımı Memorial Kompleksi Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş və 2013-cü ilin sentyabr ayında Quba şəhərində ”Quba Soyqırımı Memorial Kompleksi”nin rəsmi açılışı olmuşdur. Ermənilərin Azərbaycan torpaqlarında törətdiyi soyqırım faciələrini əcnəbi qonaqlar və ölkəmizə səfər edən xarici turistlərə də tanıtmaqdır. Quba Soyqırımı Memorial Kompleksi bu istiqamətlərdə müxtəlif platformalardan istifadə edirək öz tanıtım və təbliğatını aparır. Kompleks ölkə daxilndə fəaliyyət göstərən mədəniyyət müəssilərilə, muzeylərlə və tarix-mədəniyyət qoruqları ilə əməkdaşlıq edir, xarici ölkələrdə fəaliyyət göstərən Memorial Muzeylərlə ikitərəfli əlaqələr qurmağa çalışır.

Belə bir mənzərəsi, tarixi ilə seçilən Qubanı seyr etməmək, oranın görməli yerlərindən maraqlı məlumatlar toplamamaq mümkün deyildi. İnsanı təbiət yaratdığından öz sərvətlərini də ondan əsirgəməmişdir. Hər bir iqlim qurşağının təbii gözəlliyini sadalamaq insana nə qədər xoşdursa, Azərbaycan məkanlarında olub, onun görməli yerlərinin ab-havasını duymaqda o qədər xoşdur. Təbiəti Tanrı sanki sənət əsəri yaradıb hər lövhəsində rəngarənglik var. Bu gözəlliyi duymaq, görmək üçün Qubaya gələn turistləri sayı ilbəil artır. Bizlər isə təbiətin bizə bəxş etdiyi bu gözəlliyi qorumalı, onu gələcək nəsillərə ötürməliyik.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Molla rejimi insan oğurluğunu dövlət siyasətinə çevirib





*Hər zaman o fikri vurğulamışam ki, dünyada sülhün və təhlükəsizliyin təmin olunması üçün gərəkdir ki, Ermənistanın mövcudluğuna son qoyulsun, molla rejimi dünya siyasət səhnəsindən silinsin. Çünki bu iki irticaçı dövlət qaldıqca bəşəriyyət dinclik tapmayacaq. Hər zaman ölüm-itim olacaq, terror hadisələri və ya terrora hərbi, siyasi, maliyyə dəstəyi göstərilməklə insanların həyatına son qoyulacaq, partlayışlar, dağıntılar olacaq.*

Nəyin imtahanıdırsa sağımızda molla rejimi terror fəaliyyəti ilə meydan sulayır, solumuzda terroru dövlət siyasətinə çevirib dinc insanları qətlə yetirən Ermənistan dayanır. 30 il erməni terror dəstələri işğal etdikləri Azərbaycan ərazilərində daşı-daş üstə qoymadılar. Ağdamı, Füzulini Qafqazın Xirosimasına çevirdilər, məscidlərimizi, tarixi abidələrimizi dağıdıb, insanların dişləri, dırnaqları ilə qurduqları evlərini talan edib, yandırdılar. 44 ildir ki, güneyli soydaşlarımız molla rejiminin basqısı altındadır. 44 ildir ki, gecələr evlərindən oğurlanan insanlar zindanlara salınır, naməlum şəraitdə qətlə yetirilir. Bu baxımdan, fars - molla rejimi öz vətəndaşları üçün həbsxanaya, işgəncə meydanına çevrilib. Terror dövləti xarici ölkə vətəndaşları üçün də təhlükə mənbəyidir. Çünki molla rejiminin meydan suladığı ərazilərə səfər edən hər bir xarici ölkə vətəndaşı ya öldürülə, ya da zindanlara atıla bilərlər.

Hesablamalara görə, 2018-ci ildən ötən müddət ərzində fars-molla rejimi 1764 xarici ölkə vətəndaşını oğurlayaraq zindanlara atıb. Diqqətçəkən məqam ondan ibarətdir ki, oğurlanan insanlara sonradan casus damğası vurulur. Ona görə də Cənubi Azərbaycanda dövlətçiliyimiz bərpa olunana qədər insanlar o yerlərə səfər etməkdən çəkinməlidirlər. 4 aya yaxındır ki, oğurlanaraq zindana atılan Fərid Səfərlinin taleyi göstərir ki, Azərbaycan vətəndaşlarının doğma torpaqlara bəlli səbəblərə görə səfər etmələri təhlükəlidir. Nəzərə almaq lazımdır ki, dəfələrlə Azərbaycan vətəndaşları molla rejiminin ərazilərində problemlərlə üzləşiblər. 2008-ci ildə molla rejiminin şirkətin dəvəti ilə Tehrana səfər edən azərbaycanlı alim Rəşid Əliyev qondarma ittihamla həbs olunmuşdur. 2012-ci ildə ədəbi tədbirə dəvət olunan gənc şairlər Fərid Hüseyn və Şəhriyar Hacıyev Tehran şəhərində həbs olundular. 2013-cü ildə AMEA-nın əməkdaşı Xalidə Xalid və sürücüsü Şamxal Hüseynov Tehranda olarkən yenə də qondarma ittihamla həbs edildilər. Hazırda isə eyni aqibəti Almaniyada təhsil alan azərbaycanlı tələbə Fərid Səfərli yaşayır. Artıq sübuta yetirilib ki, Fərid Səfərli molla rejiminin xüsusi xidmət orqanlarının qurduqları məkrli planları əsasında həbs edilib. O sevdiyi qızın dəvəti ilə molla rejiminin ərazisinə daxil olub və bu zaman oğurlanmış, 3 ay sonra isə ona qarşı “casusluq” ittihamı ylan olunmuşdur. Fərid Səfərlinin anası Dilarə Əsgərova bildirib ki, onlar bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məktub alıblar: “Məktubda bildirilir ki, Fəridi İranda casusluq maddəsi ilə həbs ediblər. Oğluma qarşı irəli sürülən ittiham saxtadır. Mənim oğlum casus deyil. İqtisadiyyatı bitirib, yəni heç siyasi fəaliyyəti belə olmayıb. Hər normal insan kimi yaşadığı planetdə nə baş verdiyini bilmək üçün xəbər oxuyur. Onun siyasətlə əlaqəsi bu qədərdir. Casusluq ittihamı absurddur. Mən əminəm ki, son zamanlar İran-Azərbaycan əlaqələrinin kəskinləşməsi səbəbindən mənim oğlum orada saxlanılıb. Bir növ bizim ölkəmizə göz dağı verilir. Ümid edirəm ki, Azərbaycan öz vətəndaşını orada çarəsiz vəziyyətdə qoymaz”.



Budur, molla rejiminin əsl siması və üzü. Belə qəddar rejim dünya tarixində heç zaman olmayıb. Belə rejimlər süqut etməyincə, dünya dinclik tapmayacaq. Sakitliyin və təhlükəsiz həyatın təmin olunması üçün gərəkdir ki, beynəlxalq aləm bir araya gəlsin. Birlikdə Ermənistan və fars-molla rejimi kimi terror yuvaları dağıdılsın. Bu halda F.Səfərli kimi minlərlə gənc sakit, rahat həyatlarına qovuşa bilər.

***İ.ƏLİYEV***






# Ancaq “cicibebe”, banan, vəssalam...

**Mətanət Məmmədova**

***Ümumdünya Qida Təhlükəsizliyi Günündə günümüzün bu sahə ilə bağlı nə qədər təhlükəli olduğundan saatlarla danışmaq olar. Özümüzü qoyaq bir kənara. Bizə olan olub, keçib. Bu gün uşaqlarımızdan danışaq. Uşaqlarımızın da ən balacalarından-körpələrdən söhbət açaq. Hazırda əksər uşaq həkimlərinin oxşar təyinatı ilə onlara qida olaraq tövsiyə edilən “cicibebe” və banandan danışaq. Sanki uşaq həkimlərinin bundan başqa bildikləri yoxdur. Bu qidalar körpələrimizə nə verir, nə alır?..***

Elə ki, körpəmiz dünyaya gəldi və müasir analar onlara süd verməkdən imtinaya başladılar, birinci növbədə həkimə müraciət edirlər ki, bəs nə edim, südüm yoxdur. Əslində isə ananın südünün olmaması mümkün deyil, var, lakin körpəsinə vermək istəmir. Çünki onun beyninə doldurulub ki, uşağa süd vermək qadının formasını pozur. Bu, təbii ki, yalnış düşüncə tərzindən başqa bir şey deyil.

Bəzi uşaq həkimləri anaları möhkəmcə danlasalar da, əksəriyyəti süni qidalardan yazıb onları evlərinə göndərir. Analar da başlayır rahatlıqla bu süni qidaları su ilə qarışdırıb uşağın mədəsinə doldurmağa. Daha sonra isə axı uşağa əlavə qidalar lazımdır. Bu dəfə isə ana yenə həkimə müraciət edir, bu dəfə isə illərin dəyişməz tövsiyəsi ilə “cicibebe” və banan tövsiyə olunur. Ana da sevinclə evə qayıdır və marketlərdən həmin məhsulları alıb, yenə doldurur uşağın mədəsinə. Nəticədə uşaq gündən-günə şişir, ana da fərəhlənir ki, gör, uşağa necə baxırsma, gündən-günə gümrahlaşır.

Bu dəfə ana nə edir? Bu qidaları rəfiqələrinə də məsləhət görür. Beləliklə, cəmiyyətimizdə əksər ana öz südündən imtina edir, keçir süni qidalara. Ardınca da “cicibebe” və banana...

Banan meyvədir, əslində onun uşaq üçün elə bir ziyanı ola bilməz. Lakin biz nə üçün xaricdən gətirilən meyvələri öz meyvələrimizdən üstün tuturuq? Axı əslində kəndlərimizdə yetişdirilən almaların tərkibi bananın tərkibindən qat-qat zəngindir. Belə isə həkimlərimiz körpələrə nə üçün almanı deyil, bananı məsləhət bilirlər? Valideyn də 50 qəpiyə, 1 manata almalı olduğu alma əvəzinə, 2-4-manat arası bananı alır.

Bəs “cicibebe” peçenyesi? Bu da ölkəmizdə istehsal olunmur. Bu qidanın uşağa əhəmiyyəti nədən ibarətdir? O, sadəcə uşağın aclıq hissini təmin edir. Bir də günü-gündən onda çəki artımı yaradır. Başqa heç nə. Əvvəllər uşaqlara un horrası bişirib verirdilər. Keyfiyyətli unla, təmiz kərə yağı ilə. Düşünürəm ki, həmin horra “cicibebe”dən min dəfə keyfiyyətli olar.

Biz nə üçün öz məhsullarımıza, dədə-baba qaydalarına uymur, daha çox müasirliyə can atırıq? Bu müasirlik isə çox vaxt bizim xeyirimizə olmur. Bəlkə də müasir görünmək xəstəliyinə tutulduğumuz üçün bu kimi hallardan əl çəkə bilmirik.

Qida təhlükəsizliyi günündə “cicibebe” və bananı uşaqlara qida kimi tövsiyə edən həkimlərə üz tutaraq demək istəyirəm ki, cəmiyyətimizin gələcəyini düşünün bir az, nə olar. Birincisi, anaları qəti şəkildə uşaqlarını öz südləri ilə qidalandırmağa çağırın. Bəzi hallarda bu mümkün olmayanda isə onlara doğru yol göstərin. Körpələrə elə qidalar tövsiyə edin ki, həm büdcəmizə uyğun olsun, həm də öz elimizin, obamızın, təbiətimizin yetirib-bitirdiyi olsun.

Unutmayaq ki, hansı coğrafiyada yaşayırıqsa, o yerdə bitən, ərsəyə gələn meyvə-tərəvəz bizdən minlərlə kilometr uzaqlara məxsus olanlardan qat-qat keyfiyyətlidir və bizim orqanizmimiz üçün daha əhəmiyyətlidir.

Həkimlərin “cicbebe” və banan tövsiyəsinə son qoymalarının vaxtı çoxdan keçib. Lakin hələ də gec deyil...

# "Sülh sazişinin imzalanmasına mane olacaq problem qalmayıb"

**"*Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin qarşıdan gələn həftənin ilk günündə Vaşinqtonda keçirilməsi planlaşdırılan görüşü mühüm əhəmiyyətə malikdir və bu danışıqlarda irəliyə doğru addımların atılması ehtimalı çox güclüdür". Bunu "Alyans" strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında deyib.***



Onun sözlərinə görə, Ermənistan baş nazirinin Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməsindən sonra "sülh sazişi"nin imzalanmasına mane olacaq ciddi problemlər demək olar ki, qalmayıb: "Bu şəraitdə əsas problem ondan ibarətdir ki, N.Paşinyan sülhə imza atdıqdan sonra devriləcəyindən ehtiyat edir. Bir qədər əvvəl onun verdiyi-"Ukrayna müharibəsində Ermənistan Rusiyanın müttəfiqi deyil"-bəyanatdan və buna cavab olaraq Rusiya prezidentinin mətbuat katibinin-"biz bunu nəzərə alacağıq"-hədəsindən sonra erməni liderinin narahatlığı təbii ki, xeyli çoxalıb. N.Paşinyanın qərbə yönəlik reveranslarının Rusiyanı hiddətləndirməsi heç kimə sirr deyil və Kreml təmsilçiləri tez-tez bu narazılığı onun nəzərinə açıq mətnlə çatdırırlar. Qərbin vasitəçilik səylərinin son illər görünməmiş artdığı bir şəraitdə Ermənistan lideri sazişin imzalanmasını ləngitməyin mənasız olduğunu və onu qərbdəki dayaqlardan məhrum edəcəyini yaxşı başa düşür. Digər tərəfdən qərb təmsilçiləri onu da anlayırlar ki, müqavilənin imzalanmasını sürətləndirməyin yeganə yolu güclü və haqlı tərəf olan Azərbaycanı dəstəkləməkdən və Ermənistana təzyiq göstərməkdən keçir. Bu səbəbdən Vaşinqton danışıqlarında Ermənistana ciddi təzyiq göstəriləcəyi və ermənilərin bir neçə əsassız bəhanələrinin aradan qaldırılacağı ehtimalı çox güclüdür.

A.Səmədov onu da bildirdi ki, ABŞ və Avropa Birliyi Rusiyanın Ukraynada düşdüyü ağır durumdan maksimum istifadə edib, nəyin bahasına olursa-olsun bu il "sülh sazişi"nin imzalanmasını təmin etmək istəyirlər: "Əks halda Rusiyanın gələcəkdə təşəbbüsü ələ almaq ehtimalı var ki, bu da nə qərbin, nə də Azərbaycanın maraqlarına qətiyyən uyğun deyil. Hədəf bu ilin sonlarında İspaniyanın Qranada şəhərində keçiriləcək Avropa Siyasi Birliyinin 3-cü sammitində son nöqtəni qoymaq və Cənubi Qafqazda sülhün təmin olunması istiqamətində həlledici addımı atmaqdır. Bu prosesdə Vaşinqton danışıqları mühüm mərhələ kimi qiymətləndirilir və baş tutacaq görüşün ümidləri doğrultmaq ehtimalı çox yüksəkdir".

**GÜLYANƏ**

# Ay Molla, gəl, gör, bizim dərdimiz nədir?..

***Mən də dara düşən kimi nə edim, üz tuturam Molla Nəsrəddinin o müqəddəs ruhuna. Vallah, məni qınamayın, bu ruhun köməyi qədər canlıların köməyini görməmişəm. Elə bu səbəbdən də yenə üz tutdum rəhmətliyə.***

Ay Molla, sən Allah, vaxt elə, qulaq as, bir yol göstər bizə. Vallah səndən başqa bu dərdi kimə dedimsə, çarəsi olmadı. Ay rəhmətlik, axı səsdən başımız çatlayır. Bəlkə də həkimə getsək, hamımıza "başınız xarab olub, gedin qalan ömrünüzü istədiyiniz kimi yaşayın",- deyəcək.

Ay Molla, hərdən fikirləşirəm ki, bu uzaydan gəlib gecəynən bizə nə isə etdilər, görəsən? Elə hey o deyir-bu deyir ki, axşam göydə tarelka gördüm, yerdə parıltı gördüm. Vallah, şübhələnirəm bəzən. Bizə nə etdisə, onlar etdi. Yoxsa ətdən, sümükdən ibarət bizləri bu səs çoxdan o dünyaya aparmış olmalıydı.

Ay qurban olum, camaatın hamısı qışqırır, xəbərin var? Hamı ucadan danışır, qulağını tıxıb öz-özünə danışır. Vallah, elə qorxulu görünürlər ki... Bir də görürsən ki, küçədə bir nəfər öz-özünə danışa-danışa sənə tərəf gəlir. Hiss edirsən ki, əlin-ayağın buzlayır. Gəlib yanından keçir, xeyli aralanandan sonra sənlə işi olmadığını görüb toxdayırsan.

Gənclərin universitetdən çıxma vaxtı küçədə bir hay-qışqırıq başlayır ki.... Birbiriləri ilə zarafatlaşa-zarafatlaşa, ucadan danışa-danışa gedirlər. Hələ metroda ey, elə ucadan danışırlar ki, dönüb baxırsan, baxanda da sənə elə bir göz süzdürürlər ki, vallah, qorxursan. Deyirsən bu yaşımda bunlar məni döyəcək deyəsən...

Metroda-qatarda bir də eşidirsən ki, kiməsə zəng gəldi, başladı çığıra-çığıra



**FELYETON**

danışmağa. Onun əvəzindən ha utan, nə olsun. O, öz işindədir. Heç vecinə də deyil ki, axı bu qədər adamın qulağı məndədir...

Ay Molla, dərd bir olar, iki olar, deyərsən, hə. Axı onlarladır, hansından danışım ki, ürəyim soyusun. A kişi, xoşbəxt adammışsan ey, dövründə maşınfilan yox idi. Minirdin uzunqulağa, düşürdün yola, başın sakit, könlün dinc. Gəl də, nə olar, gəl, günümüzə bax. Gör, nələr çəkirik?

A kişi, bu Bakı şəhərini sən yaxşı tanıyırsan da, ta burda maşın əlindən tərpənmək mümkün deyil. İlahi, kimin əlinə beş qəpik düşübsə, verib maşına, özü də girib içinə, ta çıxmaq bilmir. Axşama kimi o küçə sənin, bu küçə mənim. Siqnallayırlar, elə bir dəlixanadır bura. Siqnalı qoyum bir kənara ey. Maşınlardan çıxan musiqi səsi qapılarımızı Xəzərdən gələn fırtınalı külək kimi açıb soxulur evlərimizə, otaqlarımıza. Deyir, dur ayağa, sən hara, istirahət hara?

Allah köməyimiz olsun, ay Molla, yaman xəstəyik. Sən Allah, vaxtın olanda bizə bir kitab aç. Gör vəziyyətimiz necə olacaq? A kişi, deyirəm sənə ki, minlərlə maşın var bu şəhərdə, deməli, minlərlə də xəstə var. Bax halımıza. Desən ki, bunların mərəzi nədir? Budur ki, hamısının başının içinə nə isə olub, ya da qulaqlarına. Maşında musiqiyə bu qədər səs verərlər?

Vallah, yazıqlar, xəstədirlər. Yoxsa bu səs kənardakıların başını bu qədər pozanda, gör onlara nə edər. Yəqin bunları o uzaydan gələnlər dəyişdirib özləri kimi dəmirə çevirdilər. Ki, bunlara səs təsir etmir. Gup-gup, axı nə qədər gupgup?..

And olsun Allaha, Molla, gup-gup səsi beyninə təmas edir, qayıdır, mahnıların səsi qarışır bir-birinə, deyirsən bəs cəhənnəmin qır qazanında pak-pak qaynayırsan.

Elə vallah, cəhənnəmliyik hamımız. Ətəyi qaldırıb dizimizdən iki qarış, köynəyi də göbəyimizdən bir qarış yuxarıya qaldırıb qiyanda, sinəmizi açanda, Allahın verdiyi əzaları bəyənməyib yeniləyəndə, saçlarımızı gör qurşağı rənglərinə boyayanda, sosial şəbəkələrdə biabırçılıqla məşğul olanda, Allah da bizə bax belə mərəz endirər göydən.

Günahkar özümüzük. Amma yenə də Allah köməyimiz olsun, Hamımızın övladı var. Övlad yazıq da nə etsin, gözünü açıb bizi görür, arxamıza üç təpik də artıq vurur. Deyirik görən bu niyə belə oldu? Ta düşünmürük ki, kül başımıza, bizim mərəzimiz buna da keçdi.

Hə, Molla, gör bizə nə edə bilərsən. Yəni görəsən bu qışqırmamaq üçün bir dava varmı, yazığıq, həm də çox yazıq...

**Mətanət Məmmədova**



**Elçin Bayramlı**

# Sonuncu döyüş

***Son illərdə dünyada cövlan edən və 8 milyard insanı bir anda "zərərsizləşdirən" virusun bütün dünya üzrə ümumi çəkisi 1 qram idi. Məlumatlara görə, təkcə bir bioloji laboratoriyada 2,5 ton virus saxlanılır. Dünyada isə yüzlərlə hərbi-bioloji laboratoriya və minimum 1500 növdə təhlükəli virus var. Covid-19 onların hələ ən zəiflərindən biri idi.***

Bəziləri ultrasürətli yayılma və dərhal öldürmə qabiliyyətinə malikdir və bütün bəşəriyyəti, bütün canlı aləmi bir neçə günə məhv etmək gücündədir. Çox dəhşətli bakterioloji silahlar da var ki, qısa vaxtda bütün canlı aləmi məhv edə bilər.

Koronavirusla qlobal təlim məşq prosesini keçdilər deyə daha güclülərini buraxa bilərlər və özləri nəhəng yeraltı bunkerlərinə çəkilə bilərlər. O bunkerlərin yüzlərlə, minlərlə insana uzun illərə yetəcək qədər qida, dərman, su, oksigen və s həyati vacib şeylərlə təminatı çoxdan həll edilib.

Yəni dünya ciddi təhlükə qarşısındadır. Əllərində nəhəng elmi-texniki imkanlar olan qlobal qüvvələr hazırda açıq şəkildə nəyəsə hazırlaşırlar. Qlobal faciə törədilə bilər. Bu nüvə müharibəsi də ola bilər, dəhşətli öldürücü və yayılma gücünə malik virus terroru da, süni yaradılacaq qlobal kataklizmlər də.

Sual verə bilərsiniz ki, bəs niyə bunu etmirlər. Əvvəla, hələ vaxtı deyil, 4-cü sənaye inqilabı tam başa çatmayıb, robotlar hələ ki insanları tam əvəz edə bilmirlər, ikincisi də özləri də ölmək fikrində deyillər. Bunlar prosesi elə aparmaq istəyirlər ki, özləri sağ qalsın, qalanları ölsün. Onlara isə robotlar xidmət göstərəcək, onlar insanlar kimi təbiəti zəhərləmirlər, maaş, pensiya, qida dərman, istirahət tələb etmirlər, planetin bioloji resurslarını işlədib qurtarmırlar.

Ona görə də, hələ ki, daha humanist və sakit üsullarla işləyirlər, əsasən bioloji terror və ekoterrorla prosesi davam etdirirlər. Buraya qida terroru, psixotron terror, dərman və peyvənd terroru, süni təşkil olunmuş təbii fəlakətlər, şüa "terapiyası", frekans yönəldilməsi və s daxildir.

Dövlətləri sıradan çıxarmaq, bütün insanları (hətta heyvanları da) nanoçiplərlə mərkəzi kompüterə bağlamaq və süni intellekt vasitəsilə Vahid Dünya Dövləti adından tam idarə etmək (Total Kontrol proyekti).

Ümumiyyətlə, planı 2045-dək başa çatdırmaq fikrindədirlər (AVATAR 2045 proyekti). 2050-dən sonra tamam başqa dünya olacaq. 4-cü sənaye inqilabi və 5G texnologiyası ilə məqsədə lap yaxınlaşıblar. 5-ci sənaye inqilabında və 6G-də artıq insan olmayacaq. Əvvəlcə yarıinsan-yarırobot kiborqlar olacaq, onlar da ümumi sistemə bağlı idarəolunan formada (İnsan 2.0 proyekti). Sonrakı mərhələdə tam intellektual robotlar. Hər şeyin Matriks filmindəki kimi başa çatacağına artıq analitiklər şübhə etmirlər.

Yəni, insan generasiyasının sonuncu nümayəndələri bizik. Transhumanistlər açıqca deyirlər ki, Yaradan insanı natamam və zəif yaradıb (İnsan 1.0), biz daha mükəmməl insan yaradacağıq (İnsan 2.0). Artıq gizli laboratoriyalarda insan beynini kompüterə köçürmək və əksinə insan beyninə kompüterdən proqram yazmaq prosesləri başa çatdırılmaq üzrədir. Gen mühədisliyi dəhşətli həddədək inkişaf edib, süni insan yaratmaqdan tutmuş, insanın genlərini dəyişib onu fərqli varlığa çevilə bilmək kimi elmi imkanlara malikdirlər.

Bu planlar baş tutsa, insan olaraq öz sonuncu əsrimizi də yarımçıq yaşayacağıq, əsrin 2-ci yarısı artıq təbii insan mövcud olmayacaq. Əlbəttə özlərindən, yəni seçilmişlərdən başqa. Bu seçilmişlərin siyahısı artıq hazırdır, lakin konkret rəqəm haqda hələlik dəqiq məlumat yoxdur.

Yəni, qlobal satanistlərin plani bellədir və bunu heç gizlətmir və açıqca hər yerdə deyirlər də. Nail olacaqlarmı, dəqiq deyə bilmərəm, amma bizim şansımız çox azdır. Çünki, onlar açıqca xidmət etdikləri şeytanın tapşırıqlarına dəqiq və canla-başla əməl edirlər, biz də Yaradanın təlimatlarını vecimizə də almırıq, öz bildiyimizi edirik.

Bizim axmaqlığımız, qorxaqlığımız və nəfsimizə qul olmamız sayəsində dünyanın elmi, texnologiyası, maliyyəsi, hərbi gücü, qida və dərman sənayesi tam olaraq bunların əlindədir. İnsan beyninə nəzarət edib idarə etməklə bağlı texnologyaları da hazır olmaq üzrədir. Əgər bəşəriyyət ağıllanmasa geri dönüş olmayacaq. Bunun üçün çox az vaxtımız qalıb. Sonuncu döyüş çox ağır olacaq...



# Rusiyalı ekspert: "İrəvan sazişin imzalanmasını gecikdirir, amma..."

***Demək olar ki, bütün beynəlxalq vasitəçilərin- Moskvanın, Vaşinqtonun, Brüsselin iştirakı ilə Bakı ilə İrəvan arasında danışıqlar prosesinin intensivləşməsi ilk baxışdan yaxşı xəbərdir- burada Ermənistanı nəhayət ki, bu addımı atmağa məcbur edəcək şanslar daha çoxdur. Sülh müqaviləsinin imzalanması istiqamətində real addımlar atılmalı, İrəvan Azərbaycana qarşı boş ittihamlara son qoymalıdır. Lakin hər şey o qədər də sadə deyil- danışıqlarda mötədillik uğrunda güc mərkəzləri arasında gedən rəqabət təbii ki, onların öz maraqları ilə diktə olunur.***

Və Krilovun məşhur təmizilində olduğu kimi "balıq, ördək və xərçəng" düsturuna görə elə bir vəziyyət yaranır ki, hər kəs danışıqlar arabasını öz istiqamətinə sürükləyir, prosesin ümumi balanssızlığını artırır.

Bəs Kreml Qərbin bu qədər aktivliyinə necə mülayim yanaşır? Xüsusən də, indi İrəvanın özü Rusiyanın iştirakını çox aktiv şəkildə əngəlləyəndə. Məsələn, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Zəngəzur dəhlizinin təhlükəsizliyinə nəzarətin Rusiya deyil, Ermənistan hərbçiləri tərəfindən həyata keçiriləcəyi ilə bağlı bu yaxınlarda verdiyi açıqlamaya baxmağa dəyər. Yəni, İrəvan açıq şəkildə etiraf edir ki, 2020-ci il Üçtərəfli Bəyanatın müddəaları onu qane etmir. Bu arada məhz Moskva Zəngəzur dəhlizinin işə salınmasına fəal dəstək verir ki, bu da ona malların idxalını və ixracını artırmaqla sanksiyaların blokadasını yüngülləşdirməyə kömək edə bilər.

Rusiyalı politoloq, iqtisad elmləri doktoru, Sankt-Peterburq Universitetinin professoru Stanislav Tkaçenkonun fikrincə, istənilən danışıqlar iştirakçısı bilir ki, bir çox uğurlu görünən razılaşmaların uğursuz olduğu danışıqların ən təhlükəli hissəsi son mərhələdir". Ekspert "Caliber" analitik mərkəzinə şərhində qeyd edib ki, tərəflər razılığa gəlməyə hazır görünəndə, son məqamda müəyyən şərtləri qəbul etmirlər. Məhz bu məqamda danışıqlarda iştirak edən tərəflər müzakirənin ilkin mərhələsində ikinci dərəcəli məsələni həll etməyə çalışırlar- öz liderlərini, parlamentlərini və ya xalqlarını gələcək sazişlərin faydalarına necə inandırmalı, arzu olunan razılaşmanın əldə olunacağına necə əmin olmalı, dövlətin daxili və ya xarici siyasəti qarşısında duran əlavə vəzifələrin həllinə necə kömək etməli. Və belə bir vəziyyət, politoloqun fikrincə, Azərbaycan və Ermənistan arasında sülh sazişi üzrə uzun aylar davam edən danışıqların indiki mərhələsinə tam uyğundur.





"Bu mərhələdə Azərbaycanın xarici məqsədləri mülayim və realdır. Bakı özünün çoxvektorlu beynəlxalq strategiyasını bir daha təsdiqləməyə çalışır, buna görə də Cənubi Qafqazın təhlükəsizlik sferasına təsir edən bütün xarici oyunçuları- Rusiya, ABŞ və Avropa İttifaqını vasitəçi kimi cəlb edir. Bu dövlətlər gələcək sülh sazişini aydın və birmənalı dəstəkləməli, bununla da onun beynəlxalq hüquqi çəkisini artırmalıdırlar. Təbii ki, Rusiya ilə Aİ və ABŞ arasında münasibətlər düşməncəsinədir, donmağa yaxındır. Amma Moskvada, Brüsseldə və Vaşinqtonda ümumilikdə Cənubi Qafqazda gələcək sülhdən razıdırlar, ona görə də onu yaxınlaşdırmaq üçün fəal şəkildə çalışırlar",- ekspert hesab edir.

Lakin gələcək sülh sazişinin mətninə münasibətdə Ermənistan üçün oxşar məqsədlər, məsələn, tranzit və digər məsələlər, S.Tkaçenkoya görə, daha mürəkkəb və hətta ziddiyyətlidir: "İrəvan bütövlükdə dövlət sərhədlərini tanımağa hazırdır- Qarabağın Azərbaycana mənsubluğu da daxil olmaqla. O həm də pronsipcə, Bakı ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin Zəngəzur dəhlizindən keçməsi və sərbəst şəkildə, beynəlxalq yük və sərnişin daşımaları qaydalarına uyğun olaraq həyata keçirilməsi nə hazırdır. Lakin danışıqlar masası arxasında praktiki olaraq həll edilmiş bu məsələlərin dərhal tanınması müasir Ermənistanın liderləri üçün ağır siyasi nəticələrlə müşayiət olunacaq.

Və indi danışıqlar aparmaq və yekun qərarlar vermək səlahiyyətinə malik İrəvan siyasətçilərinin çoxu öz ölkələrinin siyasi sisteminin kənarında qala bilərlər. Ermənistan hökumətinin nümayəndələrinin danışıqlarda iştirak edən xarici dövlətlərin sayını genişləndirmək cəhdləri, o cümlədən Hindistanı vasitəçi etmək üçün aktiv, lakin tamamilə əbəs cəhdlər bundan irəli gəlir. Onlar sazişin imzalanmasını gecikdirirlər, lakin onun məzmununa heç bir təsir göstərmirlər",- S. Tkaçenko qeyd edir.

Ekspertin sözlərinə görə, Rusiya hər hansı digər qeyri-regional dövlət və ya dövlətlər birliyindən daha çox Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlıdır.

"Bu gün Moskva Ermənistanın müttəfiqidir, Azərbaycanla geniş miqyaslı iqtisadi əlaqələrə malikdir və Gürcüstanla münasibətlərin normallaşdırılması üçün fəal səylər göstərir. Bu kontekstdə Rusiyanın Azərbaycan ərazisinin iki hissəsi arasında malların tranziti və beynəlxalq yüklərin daşınması üçün Zəngəzur dəhlizinin açılmasında maraqlı olması məsələsi göz qabağındadır, çünki bu addımlar Cənubi Qafqaz və onun tranzit potensialının yaradılmasına, iqtisadi əlaqələrin bərpası prosesinin başlanmasına kömək edəcək. Və bu yolda istənilən gecikmələr, o cümlədən dəhlizin artıq birinci mərhələdə Rusiya sülhməramlılarının iştirakı olmadan eksklüziv olaraq Ermənistan hərbçiləri tərəfindən mühafizəsi Moskva ilə Yerevan arasında əlavə məsləhətləşmələr tələb edəcək",- həmsöhbətimiz deyir.

Rusiyada, S.Tkaçenkonun sözlərinə görə, Azərbaycan və Ermənistan arasında danışıqların hazırkı mərhələsi ilə bağlı vahid mövqe yoxdur.

"Moskva bilir ki, uzunmüddətli sülhün əsası yalnız iki dövlətin könüllü olaraq imzalayacağı sazişlə qoyula bilər və bu sazişdə 30 ildən artıq davam edən münaqişədən ən yaxşı çıxış yolunu göstərmək lazımdır. Həmçinin Ermənistan xalqının regionda sülhün öz dövlətinin sabit inkişafı üçün əsas şərt olduğunu anlayaraq bu sazişi qəbul etməsi vacibdir. Bu, asan məqsəd deyil və yalnız əhalinin əksəriyyətinin maraqlarını öz reytinqindən üstün tutan siyasətçilər buna nail ola bilərlər. Moskva öz imkanları daxilində İrəvanı konstruktiv hərəkət etməyə inandırmağa çalışır, lakin bu, hələ ki, o qədər də uğurlu alınmır", - deyə rusiyalı politoloq yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Erməni müxalifətçi: "Ermənistan avtoritar ölkəyə çevrilib"

## *Avetik Çalabyan: "Ölkənin təhlükəsizlik sisteminin vahid strategiyası yoxdur"*



"Bütün göstəricilərinə görə Ermənistan demokratik deyil, avtoritar ölkədir". Bu barədə ölkənin verelq.am saytı bir müddət əvvəl istintaq nəzarətindən azad edilən siyasi xadim Avetik Çalabyanın fikirlərini dərc edib. Onun sözlərinə görə, Ermənistan hakimiyyətinin bütün budaqları bir siyasi mərkəz tərəfindən nəzarət altında saxlanılır. "Bu nəzarət imkan verir ki, hakimiyyət hüquq-mühafizə sistemini özünün siyasi opponentlərinə qarşı istifadə edə bilsin", - deyə Çalabyan CivilNet-in efirində ona qarşı başladılan proses haqqında danışarkən bildirib. Maraqlıdır ki, Çalabyan vaxtilə Paşinyanın yaxın dəstəkçilərindən biri olub və sonradan müxalifətçiliyi seçib.

**Erməni müxalifətçisi: "Həbsimə qədər bəyanatlarımda səsləndirdiyim həmin aspektlər indi də qalmaqda davam edir, təəssüf ki, ölkədə heç nə dəyişməyib"**

Onun iddiasına görə, istintaq altında olduğu müddətdə mövcud vəziyyət onun siyasətlə məşğul olmasına təsir göstərməyib. "Mən həbs altında saxlanıldığım müddətdə də siyasətlə məşğul oldum. Öz vəkillərim üzərindən bəyanatlar və məqalələr göndərdim ki, onları ya mənim həyat yoldaşım, ya da həmkarlarım ictimailəşdirirdilər. Həbsimə qədər bəyanatlarımda səsləndirdiyim həmin aspektlər indi də qalmaqda davam edir, təəssüf ki, ölkədə heç nə dəyişməyib", - müxalifətçi siyasət adamı bildirib. Onun sözlərinə görə, məhz təhlükəsizlik zəmanətinin olmadığı belə bir vəziyyət siyasi fəaliyyətini davam etdirməsinə səbəblər yaradır.

**"Mövcud şəraitdə siyasi güclər birləşməli və təhlükəsizlik sisteminin vahid strategiyasını qəbul etməlidirlər, lakin indi tamamilə əksi gedir"**

"Bu gün heç bir təhlükəsizlik zəmanəti yoxdur. Bizim hər birimiz istənilən an və istənilən yerdə düşmənin hədəfinə çevrilə bilərik. Bu, istənilən vaxtda, istənilən yerdə ola bilər və bunu təxmin etmək mümkün deyil. Təkcə son zamanlarda haralarasa bombaların qoyulması ilə bağlı nə qədər siqnalların verilməsini xatırlayın, halbuki bir neçə il əvvəl belə bir şeyi təsəvvürümüzə belə gətirə bilməzdik", - deyən erməni müxalifətçisi bildirib ki, Ermənistanda hər şey əks istiqamətdə gedir və ölkənin təhlükəsizliyinin təminatı məsələsi artıq ciddiyə alınmalıdır, əks halda daha ağır fəsadlar qarşıya çıxa bilər.

**"Biz ətrafımızda müharibələrin getdiyi və qeyri-sabitliyin əhatə olunduğu regionda yaşayırıq"**

Çalabyan bütün bu kimi neqativ proseslərə qarşı mübarizə aparmağın vacibliyindən danışıb və uğurlu nəticə əldə etməyin çətin olduğunu deyib. O, bunu geosiyasi situasiyanın dəyişilməsi ilə əlaqələndirib: "Biz ətrafımızda müharibələrin getdiyi və qeyri-sabitliyin əhatə olunduğu regionda yaşayırıq. Mövcud şəraitdə siyasi güclər birləşməli və təhlükəsizlik sisteminin vahid strategiyasını qəbul etməlidirlər, lakin indi tamamilə əksi gedir".

**Bu reallıq Paşinyan hakimiyyətinin diktatura rejiminə keçməsinə səbəb olur**

Qeyd edək ki, Çalabyan Paşinyan iqtidarı tərəfindən həbsə məruz qalan tək müxalifətçi deyil. Hazırda keçmiş iqtidarların tərəfdarları da mövcud hakimiyyətə qarşı mübarizə aparsalar da, uğursuzluğa düçar olurlar. Məsələ həm də ondadır ki, sabiq Koçaryan-Sarqsyan rejimləri xalq tərəfindən də ciddi dəstək almırlar. Bu fakt isə nəticə etibarı ilə Paşinyan hakimiyyətinə, necə deyərlər, qol-qanad verir. Eyni zamanda, Ermənistan əhalisinin də əksər çoxluğu müharibə şəraitindən bezdiyini açıq şəkildə etiraf edir.

Lakin ölkə daxilində narazılıqlar da mövcuddur ki, onlar sosial tələblərlə yanaşı, siyasi tələblərlə də müşahidə olunur. Bu reallıq isə Paşinyan hakimiyyətinin diktatura rejiminə keçməsinə səbəb olur. Yəni həbslər və s. metodlar işə salınır.

***Afət Tahirqızı***

SON SƏHİFƏ

Səs

8 iyun
2023-cü il

# 1 milyon dollara alıblar, 17 milyon avroya satmırlar



*…Keçən həftə əzəli rəqibi "Fənərbaxça"nı məğlub edərək çempionluq sevinci yaşayan "Qalatasaray"da artıq transfer işləri gündəmdədir. Bir sıra ulduz futbolçuları heyətinə cəlb etməklə UEFA Çempionlar Liqasında uğur qazanmağı hədəfləyən "cim-bom", həm də öz futbolçularına görə transfer təklifləri almağa başlayıb.*

Keçən il Fransa çempionatından 1 milyon dollar müqabilində heyətinə qatdığı Saşa Böyük üçün "Qalatasaray" düz 17 milyon avroluq rəsmi təklif alıb. Hürriyet.com.tr saytının yazdığına görə, 21 yaşlılardan ibarət Fransa milli komandasının da şərəfini qoruyan futbolçu üçün İstanbul klubu 24 milyon avro transfer qiyməti müəyyənləşdirib. Futbolçunun özü isə futbolçu koryerasını İngiltərə çempionatında davam etmək istəyir.

***Mətləb Salahov***

# “Son zəng” yaxınlaşır: Neqativ hallardan necə qorunmalı?

***Bildiyimiz kimi, 14 iyun "Son Zəng" gününə çox az bir zaman qalıb. Həmin gün məzunlar arasında yol qəzaları, bir sıra mübahisələr və davaların olması da hamıya məlumdur. Bəs, bu halların qarşısı necə alınmalıdır? Şagirdlərə hansı tövsiyyələr verilməlidir. Mövzu ilə bağlı SİA Bakı şəhər DYP-nin baş inpektoru, polis mayoru Araz Əsgərli və Təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndinin fikirlərini öyrənib.***







Bakı şəhər DYP-nin baş inpektoru, polis mayoru Araz Əsgərli: ”Yol polisi olaraq bildirmək istəyirik ki, ötən illərdə “Son zəng” günü müxtəlif formalarda xoşagəlməz hadisələrin baş verdiyinin cəmiyyət olaraq şahidi olmuşuq. Çox təəssüf ki, bəzi valideynlər övladlarına avtomobil həvalə edirlər ki, həmin avtomobillərlə də müxtəlif qəzalar, bədbəxt hadisələr baş verə bilər. Belə hadisələrin olmaması üçün bir daha valideynlərə xəbərdarlıq edirik ki, idarəetmə hüququ olmayan şəxslərə sükanı həvalə etməsinlər. Bu inzibati xətadır. Belə hallarda bəzən ictimai asayişin pozulması halları da müşahidə olunur. Qəzaların və bədbəxt hadisələrin baş verməməsi üçün bu əməldən çəkinməyi xahiş edirik.

“Son zəng” tədbiri ilə əlaqədar bütün təhsil müəssisələrinin ətrafında gücləndirilmiş qaydada polis tərəfindən xidməti fəaliyyət davam etdiriləcək. Bir daha vətəndaşlardan, xüsusilə valideynlərdən xahiş edirik ki, qanunsuz əməllərə yol verməsinlər. “Son zəng” kimi tədbir hər hansı bir bədbəxt hadisə fonunda tamamlanmasın”.

Təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi: ”Hər il Son zəng” günü məzunlar arasında bəzi neqativ hallar baş verir. Bura avtomobil qəzaları və bəzi kədərli sonluqla bitən münaqişələr aiddir. Bunların baş verməməsi üçün ilk növbədə valideynlər diqqətli olmalıdır. Daha sonra müvafiq təhsil müəssisəsi məsələni ciddi şəkildə diqqətdə saxlamalıdır.

”Son zəng” mərasimi konkret olaraq təhsil müəssisəsinin həyətində keçirilməli və ondan sonra şagirdlər özləri hansısa istiqamətdə tədbirin davamını təşkil edə bilərlər. Amma bu mərhələdə müəyyən təhlükəsizlik qaydalarına mütləq riayət olunmalıdır. Düzdür, bu gün onların həyatında bir dəfə yaşanır və qeyd edirlər. Amma neqativ hallardan qorunmaq üçün müvafiq tədbirlər almalı mübahisəli məsələlərdən qaçmalı, kimisə qarşı aqressiya olmamalı, maksimum günü daha xoş keçirməlidirlər.

14 İyun ölkədə 100 mindən çox şagird məzun olacaq. Burada daha çox bəzi neqativ hallar əsasən paytaxt Bakıda və böyük şəhərlərimizdə baş verir. Bu məsələ ilə bağlı maksimum diqqətli olmalıyıq. Mən burada həm valideyni, həm məktəb rəhbərliyini, həm də şagirdləri ciddi şəkildə diqqətli olmağa çağırıram”.

***Ayşən Vəli***

# Çimərliklər mövsümə hazırdırmı?

***“Bakı şəhərinin Abşeron yarımadasında mövcud olan çimərliklər sayı çoxdur. İstər özəl, istərsə də dövlət çimərliklərində yay mövsümünə hazırlıq işləri gedir. Bu çimərliklər təmir olunur, əlavə təmiz qum səpilir, ətraf ərazilər təmizlənir, mövcud olan istirahət guşələri rənglənib, təzələnib, duş kabinaları təmir olunub”. SİA-nın Bakı Şəhər Xidmət Ticarət və Xidmət Departementindən aldığı özəl açıqlamada belə bildirilib.***

Açıqlamada deyilir ki, ”Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq” İctimai Birliyinin yaratdığı çimərliklər digər çimərliklərdən xidmətin pulsuz olmasıyla fərqlənir: ”Vətəndaşlar bu çimərliklərdə heç bir dəyər ödəmədən istirahət edə bilirlər və onların istirahəti üçün ”İDEA” ictimai birliyinin rəhbərliyi tərəfindən tam şərait yaradılıb. Artıq 5 ildir ki, Abşeron yarımadasının Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində, Səbail rayonunda, “Şıx” çimərlik ərazısində - ümumilikdə 6 yerdə fəaliyyət göstərən bu çimərliklər şəhər sakinlərinin Leyla xanım Əliyevaya müraciətlərindən sonra paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzlərinə və çimərliklərə alternativ olaraq yaradılıb. Burada yaradılan şərait və ən başlıcası isə pulsuz xidmət göstərilməsi Bakı sakinləri və şəhərimizin qonaqlarının böyük rəğbətini qazanıb. Artıq bir neçə aydır yenidənqurma və təmizlik işləri aparılır. Bununla yanaşı sözügedən çimərliklərə təzə zibilqabları, söhbətgahlar, valeyboy torları, futbol qapıları qoyulub. Həmçinin avtomobillərin park etməsi üçün böyük sahələr yaradılıb. Çimərlik mövsümü elan edildikdən sonra tullantıların çimərliklərdən daşınması xüsusi qrafiklə həyata keçiriləcək. Bununla yanaşı işçi personalı tərəfindən çimərliklər ciddi nəzarətə alınacaq, çimərliklərə yeni avtobus xətləri açılacaq”.



# FAO açıqladı: Təhlükəli ərzaqlar hər gün 340 uşağı məhv edir!



Təhlükəli ərzaq məhsulları ilə bağlı daha bir acı reallığ ortaya çıxıb. Mənşəyi naməlum yalançı qidaların insan həyatına cəllad kəsilməsi ən yüksək səviyyədə etiraf olunur. Belə ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) bəyan edib ki, təhlükəli ərzaq məhsullarından istifadə nəticəsində hər gün 1 600 000 nəfər xəstələnir. Hər gün aradan qaldırılması mümkün olan qida mənşəli xəstəliklər nəticəsində 5 yaşınadək 340 uşaq həyatla vidalaşır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**